# TÜRKÜN YÜKSƏK SƏCİYYƏSİ

HARUN YƏHYA
(ADNAN OKTAR)

# MÜNDƏRİCAT


- GİRİŞ
- İSLAMİYYƏTİN QƏBULUNDAN ƏVVƏLKİ TÜRKLƏR
- TÜRK–İSLAM DÜNYASI
- TÜRKÜN ÜSTÜN ƏXLAQI
- SON SÖZ
- TƏKAMÜL YALANI

# OXUCUYA

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə

sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

# GİRİŞ

**"Bu münasibətlə bunu da bəyan edim ki, Türk millətinin son illərdə göstərdiyi möcüzələrin, etdiyi inqilabların həqiqi sahibi özüdür. Sizsiniz."**

**K. ATATÜRK**

Şübhəsiz 20-ci əsr Türk tarixində bir dönüş nöqtəsi olmuşdur. I Dünya Müharibəsindən sonra Osmanlı İmperatorluğu parçalanmış; Türk torpaqları işğal edilmişdir. Millətimiz, malını, canını hətta bütün varlığını fəda etməyə hazır olaraq düşmənlərin güclü və müasir silahlarla təchiz olunmuş ordularına qarşı qoymuşdur. Mustafa Kamalın öndərliyində kişi-qadın, gənc-qoca əl-ələ verən Türk milləti, ölüm-qalım mübarizəsi olan Qurtuluş müharibəsindən böyük zəfərlə çıxmış; şan və şərəflə dolu olan tariximizə yeni səhifə daha əlavə etmişdir. Beləcə yeni bir Türk dövləti olan Türkiyə Respublikası doğulmuşdur. Atatürkün çəkdiyi yolda qurulan Türkiyə Respublikası tarixdə bir cığır açmışdır.

Mustafa Kamal Atatürk bu müvəffəqiyyətlərin Türk millətinin əsəri olduğunu belə dilə gətirmişdir:

***"Bu münasibətlə bunu da bəyan edim ki, Türk millətinin son illərdə göstərdiyi möcüzələrin, etdiyi siyasi və ictimai inqilabların həqiqi sahibi özüdür. Sizsiniz."***[1]

Böyük öndər, Onuncu il nitqində, Türk millətinə olan güvənin səbəbini belə açıqlamışdır:

***"Keçən zamana nisbətlə daha çox çalışacağıq, daha az zamanda daha böyük işlər bacaracağıq. Bunda da müvəffəq olacağımıza şübhəm yoxdur. Çünki, Türk millətinin xarakteri yüksəkdir..."***[2]

Bu gerçəyin yaxşı bilinməsi hər Türk vətəndaşının üzərinə düşən tarixi və milli məsuliyyətdir. Belə bir gerçəyin göz ardı edilməsinin gətirib

çıxaracağı təhlükəyə Atatürk, *"Bilməliyik ki, milli mənliyini bilməyən millətlər başqa millətlərə yem olarlar"* deyərək diqqət çəkmişdir. Yenə Atatürkün söylədiyi kimi, *"Türk uşağı əcdadını (atalarını) tanıdıqca daha böyük işlər etmək üçün özündə qüvvət tapacaq."* Digər bir deyişlə Türklərin daha böyük müvəffəqiyyətlərə imza ata bilmələri, Türk mədəniyyətini, tarixini və səviyyəsini yaxından tanıyıb yaşatmalarına bağlıdır.

Türk milləti dünya tarixinə damğasını vurmuş bir millətdir. Tarixə unudulmaz zəfərlər həkk etmiş; üç qitədə möhtəşəm dövlətlər qurmuş; əsrlər boyunca ucsuz-bucaqsız torpaqlarda dinləri, dilləri, irqləri fərqli millətləri ədalətlə idarə etmiş; ayaq basdığı yerlərə mədəniyyət aparmış; dünya millətlərinə nümunə olmuşdur. Məhz bütün bu müvəffəqiyyətlər, Türkün üstün əxlaq və səciyyəsindən qaynaqlanmışdır.

Türklər islamiyyəti qəbul etmədən əvvəl də yüksək üstünlüklərə sahib idilər. Bununla yanaşı dünya tarixində gerçək mənada söz sahibi olmaları, islamiyyətə girmələrindən sonra reallaşmışdır. Türklər bir çox dinə girib çıxmışlar; ancaq qalıcı olan yalnız islamiyyət olmuşdur. Tanınmış bir tarixçimizin ifadəsiylə, *"İslam onun yolunu işıqlandıran bir işıq olmuş və Türk milləti bu işığı izlədikcə həmişə yüksəlmişdir."*[3] Türk millətinin özündəki dəyərlərin Quran əxlaqı ilə birləşməsi, dünya tarixini dərindən təsir edən inkişaflara gətirib çıxarmışdır.

Əlbəttə şanlı keçmişə sahib Türk millətinin səciyyəsini təsvir etməyə ensiklopediyalar belə yetərli deyil. Əlinizdəki kitab, Atatürkün yuxarıdakı sözündə işarə etdiyi Türkün yüksək xarakterini tanıtmaq məqsədiylə qələmə alınmışdır. İrəliləyən səhifələrdə Türk tarixinin işığında Türkün əxlaqı, ədaləti, dürüstlüyü, təvazökarlığı, nəzakəti, xeyirxahlığı, təmkini, comərdliyi, təbiət sevgisi, qısacası Türkün üstün səciyyəsi gözlər önünə səriləcək.

# 1-Cİ HİSSƏ
# İSLAMİYYƏTİN QƏBULUNDAN ƏVVƏLKİ TÜRKLƏR

**"Türk uşağı əcdadını (atalarını) tanıdıqca daha böyük işlər etmək üçün özündə qüvvət tapacaq."**

**(Mustafa Kamal Atatürk)**

## Türk adının mənşəyi

Türk millətinin tarixi demək olar insanlıq tarixi qədər qədimdir; Türklər minlərlə ildən bəri tarix səhnəsində yer alırlar. Bu vəziyyət, elm adamlarının diqqətini çəkmiş və onları Türk sözünün mənşəyini araşdırmalara yönəltmişdir. Türk adının qaynağını tapmaq məqsədiylə aparılan araşdırmaların nəticələrinə söykənən müxtəlif fikirlər irəli sürülmüşdür. Bəzi mütəxəssislərə görə, Türk adına ilk dəfə e.ə. 14-cü əsrdə "Tik" və ya "Tiklər" şəklində rast gəlinmişdir. Bəzi mütəxəssislər isə bu adın e.ə. 14-cü əsrdən əvvəl də var olduğu fikrini mənimsəmişlər. Türklərin minlərlə illik keçmişi göz qarşısında saxlanılaraq, Türk adının haradan gəldiyinə bağlı bir çox iddia ortaya atılmışdır.[4]

Türklərin qədim dövrlərinə bağlı məlumatların mənşəyi əksəriyyətlə Çin tarixinə söykənir. Çinli tarixçilər e.ə. 2000-1000-ci illəri arasında ilk Türk hökmdarlarından bəhs edirlər. Bununla birlikdə, qədim Çin qaynaqlarındakı Türk hökmdarlarının və dövlətlərinin adları Çincə yazılıdır. Bunların Türk dilində mənaları tam mənasıyla bilinmir. Professor Erol Güngörün ifadəsiylə, "Bizim atalarımız o çağda "Türk" adıyla xatırlanmırdı. "Türk" sözü bu gün bir millətin adıdır, amma atalarımız o zaman hələ bir millət halında deyildi. Nəsil və tayfalar halında yaşayırdılar və hər tayfanın ayrı adı vardı."[5]

Türk adının tarix səhnəsinə çıxışı 6-cı əsrdə qurulan Göytürk milləti ilə olmuşdur. Orxan kitabələrində bəhs edilən "Türk" adı daha çox "Türük" şəklində göstərilmişdir. Yəni, Türk sözünü ilk dəfə rəsmi olaraq istifadə edən siyasi təşəkkül Göy-Türk İmperatorluğu olmuşdur. GöyTürklərin ilk

dövrlərində Türk sözü bir dövlət adı olaraq istifadə edilmişkən, daha sonra Türk millətini ifadə etmək üçün istifadə edilməyə başlanmışdır.[6]

Çin İmperatoru e.ə. 585-ci ildə, Göy-Türk xaqanı İşbaraya göndərdiyi məktubda "Böyük Türk Xaqanı" deyə xitab etmişdir. İşbara xaqanın Çin İmperatoruna cavabı mesajında da "Türk millətinin Tanrı tərəfindən quruluşundan bu yana 50 il keçdi" ifadəsinə yer verilmişdir. Bunlar Türk adını şəkilləndirən hadisələr olaraq tarixə keçmişdir.

Göytürk kitabələrində Türk sözü daha çox "Türk Budun" şəklində bəhs edilir. Türk Budun, Türk milləti mənasındadır. Bu səbəbdən Türk adı bu dövrlərdə bir birliyin və ya qövmün adından daha çox siyasi mənsubiyyəti təyin edən bir söz olaraq görülür. Yəni Türk soyuna mənsub olan bütün boyları və birlikləri ifadə etmək üzrə milli ad halına gəlmişdir.

Türk sözünün mənası üzərində də müxtəlif fikirlər vardır. Bunlardan bəziləri bu şəkildədir:

Çin qaynaqlarında "Tu-küe (Türk)" dəbilqə olaraq izah olunur; İslam qaynaqlarında səs bənzəməsinə əsaslanaraq tərk edilir, yetkinlik çağı şəklində qiymətləndirilir.

Arminius Vamberyin 19-cu əsrdə yazdığı əsərlərində ifadə etdiyinə görə, Türk sözü "törəmək" sözündən gəlir.

Ziya Gökalp bunu, "forma" yəni qanun və nizam sahibi şəklində açıqlamışdır.

Məşhur Alman Türkoloq Albert von Le Coq, Türk ifadəsinin "güc-qüvvət" mənasını daşıdığını irəli sürmüşdür. Le Coqun bu iddiası, Göytürk əlifbasını 1893-cü ildə ilk dəfə açan danimarkalı dilçi Vilhelm Thomsen tərəfindən də qəbul edilmiş; Macar türkoloq Gyula Nemethin araşdırmalarıyla da sübut edilmişdir.

Bu mövzudakı digər çalışmalara görə, Türk sözü, "Altaylı (Ceyhun sonra Turanlı)" qövmlərini təyin etmək üzrə 420-ci illərdəki fars mətnində görülür. Yenə 515-ci ildə, "Türk-Hun" (Qüdrətli Hun) təbirinin də keçdiyi bilinir. İran qaynaqlarında Türk sözünün "gözəl insan" qarşılığında istifadə edildiyi ifadə edilməkdədir.

9-cu əsrdə Kaşqarlı Mahmud, "Türk adının Türklərə Tanrı tərəfindən verildiyini" ifadə etmiş; "gənclik, qüvvət, qüdrət və yetkinlik çağı" demək

olduğunu bir daha vurğulamışdır. Türk sözünün “güclü-qüvvətli” mənasını verdiyi, bu gün demək olar bütün tarixçilər tərəfindən qəbul edilmişdir.

## Türk Yurdu

Zəmanəmizdə sayları 350 milyonu aşan və olduqca geniş bölgəyə yayılmış olan Türklərin ilk ana yurdunu təsbit edə bilmək üçün geniş araşdırmalar edilmişdir. Müxtəlif sahələrdə, fərqli mütəxəssis və elm adamların tərəfindən aparılan çalışmalar nəticəsində hər sahədə fərqli iddialar gündəmə gəlmişdir. Beləcə ortaya belə bir mənzərə çıxmışdır:

Tarixçilər, Çin qaynaqlarına söykənərək Altay Dağlarının; etnoloqlar, Mərkəzi Asiyanın şimal bölgələrinin; dil araşdırmaçıları, Altayların və ya Kinqan Dağlarının şərq və qərbinin; mədəniyyət tarixçiləri, Altay-Qırğız çölləri arasının; sənət tarixçilərinin, Şimal-Qərb Asiya sahəsinin; antropoloqlar isə Qırğız çölü-Tanrı dağları arasının ilk Türk ana yurdu olduğunu iddia etmişlər.

Bu mövzudakı araşdırmalara nəzər saldığımızda, Türklərin ilk ana vətənlərinin qəti sərhədlərini çəkmənin mümkün olmadığı görülər. Bunun əsl səbəbi Türklərin ilk zamanlardan etibarən olduqca geniş sahəyə yayılmalarıdır. Son illərdə aparılan dil araşdırmaları göz önünə alındığında, ilk Türk yurdunun “Altay dağlarından Ural dağlarına qədər uzanan, Xəzər Dənizi Şimal-şərq çöllərindən Tanrı dağlarını əhatə edən çox geniş bölgə” olduğu aydın olmaqdadır.

Türklər, tarixin axışı içərisində, ana yurdlarından çox uzaq məsafələrə köç edərək geniş coğrafi sahəyə yayılmış; bu gün Balkanlardan Çin Səddinə, Sibir çöllərindən Xorasansa, Əfqanıstan, Tibetə qədər olan bölgələri yurd salmışlar.

## Müsəlmanlığın qəbulundan əvvəlki Türk dövlətləri

İslamiyyəti tanımalarından əvvəl Türklər bir çox dövlət qurmuşlar: Böyük Hun İmperatorluğu, Qərbi Hun İmperatorluğu; Tabqaç Dövləti; Göytürk Dövləti (Birinci Göytürk Xaqanlığı, Şərqi Göytürk Xaqanlığı, Qərbi Göytürk Xaqanlığı, İkinci Göytürk Xaqanlığı); Uyğur Dövləti (Turfan Uyğurluğu, Sarı Uyğurlar); Avarlar; Bolqarlar (Böyük Bolqar Dövləti, Tuna Bolqar Dövləti və İdil Bolqar Dövləti); Xəzərlər; Macarlar; Peçeneqlər; Qıpçaqlar; Oğuzlar (uzlar); Kumanlar; Sabarlar; Türkeşlər; Qırğızlar; Qarlıqlar; Kimeklər...

## Hun Türkləri

Çin qaynaqlarında "Hiung-nu" olaraq xatırlanan hunlar, tarixdə adı çəkilən ilk Türk nəslidir. E.ə. 8-ci əsrdə ortaya çıxdılar; e.ə. 200-cü illərdə Teoman Yabqunun öndərliyində dövlət qurdular. Teoman Yabqunun oğulu Mete dövründə, Hun Dövlətinin sərhədləri Yapon Dənizindən Xəzər Dənizinə qədər genişlədi.

Hunlar yalnız hərbi sahədəki müvəffəqiyyətləriylə deyil, dövlət rəhbərliyindəki yetkinlikləriylə də özlərindən bəhs etdirmişlər. Necə ki, başda Mete olmaq üzrə bəzi Hun hökmdarlarının üstün xüsusiyyətləri, çinlilər tərəfindən belə qəbul edilmişdir.

Bu dövr, eyni zamanda, at belində köçlərin tarixdə ilk dəfə meydana çıxdığı zamandır. Qərbə yönələn Hunlar, fövqəladə hazırlıq səviyyələrinin yanında heyrətverici hərəkət qabiliyyətləriylə zamanla özləri ilə eyni atçılıq intizamına sahib olan Germenlər və yüksək mədəniyyət səviyyəsindəki Romalılar üzərində üstünlük qurmuşlar.

Atillanın 434-cü ildə hökmdar olmasıyla Hun Dövlətinin qızıl çağı başlamışdır. Bu dövr, Hun Dövlətinin Avropa və Asiyanın ən güclü dövləti olduğu çağdır. Çox təəssüf ki, Atillanın ölümündən qısa müddət sonra Hunlar dağılmışlar.

## GöyTürklər

GöyTürklərin Türk tarixində əhəmiyyətli yeri vardır; çünki Türk sözü ilk dəfə rəsmi dövlət adı olaraq GöyTürklər tərəfindən qəbul edilmişdir. Milləti ifadə etməsi baxımından siyasi mənası olan Türk sözü bu sayədə bütün bir millətin adı olmuşdur. GöyTürklər və Ergenekon dastanı sanki bütünləşmişdir. Ergenekon dastanı, GöyTürklərin mənşələrini və tarix səhnəsindən itib təkrar meydana çıxmalarını izah edər. Ergenekonun, Aral Gölü ətrafında və ya Ötükenə yaxın bir yerdə olduğu təxmin edilir. Dastanın ən qədim izahatlarına Çin qaynaqlarında rast gəlinir. İslam dövründə bu dastana ilk dəfə yer verilən kitab, tarixçi Rəşidəddinin "Camiüt-Təvarix" adlı əsəridir.[7]

GöyTürklər zamanında, İpək Yolundan ötəri çıxan anlaşılmazlıqlar səbəbiylə Sasani-Bizans döyüşləri başlamış və 19 il davam etmişdir. Baş verən döyüş hər iki milləti də sarsıtmış və müsəlmanlığın İranda yayılıb yerləşməsində böyük rol oynamışdır. Yenə GöyTürklər zamanında, Çin ədəbiyyat və fikir əsərləri Türk dilinə tərcümə edilmişdir.

6-cı əsrdə Bumon Xaqanının qurduğu Göytürk Dövləti, məşhur diplomatik əlaqələr silsiləsi meydana gətirmişdir. GöyTürklər, 7-ci əsrdə Çin suverenliyi altına düşmüş olmaqla birlikdə, Qutluq adlı qəhrəmanlarının rəhbərliyində 682-ci ildə yenidən müstəqilliklərinə qovuşmuşlar. Qutluğun oğlu Bilgə Xaqan, qardaşı Kül Tigin və atasının təcrübəli vəziri Tonyukuk ilə birlikdə ölkəsini yüksək həyat səviyyəsinə çatdırmışdır. Bu vəziyyət 8-ci əsrin ortalarına qədər davam etmişdir. Bu da bir gerçək ki, Bilgə Xaqan və Kül Tigin Türk millətinin yetişdirdiyi ən böyük komandirlərdəndir.

Bu dövrdən qalan Orxon kitabələri, müdrik vəzir Tonyukukun, Kül Tiginin və Bilgə Xaqanın məzar daşlarından meydana gəlir.[8] Orxon abidələrinin Türk tarixində tamam ayrı yeri vardır. Belə ki, bunlar Türk tarix və mədəniyyətinin, Türklərin fəzilətləri və mədəniyyətlərinin, qısacası Türkün yüksək səciyyəsinin köklü ifadəsidir.

Başlanğıcda yalnız axın və döyüşlər üçün qurulmuş kimi görünən Göytürk Xaqanlığı, 8-ci əsrdə bir mədəniyyət milləti olma yoluna girmişdir. Həmçinin türkcə danışan və özlərini bir-birinə yaxın hiss edən bütün Orta Asiya xalqlarını bir yerə gətirmişdir.

## Türkeşlər

GöyTürklərin bir qolu olan Türkeşlər, 7-ci əsrdə müstəqilliklərini elan etdilər. Zamanla nəsillər arasında rəqabətin artması və daxili çəkişmələr, Türkeşlərin zəifləməsinə gətirib çıxardı. Bu dövlət 766-cı ildə Qarluq Türkləri tərəfindən yıxıldı.

Türkeşlər, Türklərin şəhər və mədəniyyət həyatını mənimsəməsində və qərbdəki Türk əhalisinin artmasında böyük rol oynadılar. Beləcə sonradan Səlcuqlar kimi böyük millətlər quracaq olan Türk birliklərinin məlumat və bacarıqlarının artmasını təmin etdilər. Həmçinin Şərqi Avropada gördüyümüz Uz, Peçeneq kimi Türk birliklərinin də təməlini meydana gətirdilər.

## Qarluqlar

Qarluq Türkləri bir müddət Göytürk Dövlətinə bağlı olaraq varlıqlarını davam etdirdilər. GöyTürklərin dağılmasının ardından Çinə müqavimət göstərdilər və öz dövlətlərini qurdular. Türkeşlərin hakimiyyətinə son verdilər; onların torpaqlarını ələ keçirdilər. Bu inkişaf onları İslam ordularıyla qarşı-qarşıya gətirdi. Eyni tarixlərdə Çin İmperatorluğu, müsəlmanları dayandırmaq üçün böyük səfər başlatmışdı. Qarluqlar hələ müsəlman olmamalarına baxmayaraq İslam ordularının yanında yer aldılar. Türk-Ərəb orduları, 751-ci ildəki Talas döyüşündə, Çinlilərə qarşı qəti zəfər qazandı. Bu, Qarluq Türklərinin müsəlmanlarla qaynaşmasının və müsəlmanlığı qəbul etmələrinin önünü açdı.

## Uyğurlar

GöyTürklər tərəfindən inkişaf etdirilən yüksək dövlət anlayışı, Orta Asiya Türk nəsillərinin yaddaşlarında unudulmaz bir yer əldə etmişdir. Məhz

bu baxımdan, 745-ci ildə qurulan Uyğur Xaqanlığı, Göytürk Dövlətinin bir davamı kimidir.

Göytürk Dövlətinin sona çatmasıyla dağılan Türk nəsilləri, Uyğur Xaqanlığının rəhbərliyində təkrar birləşmişlər. Beləcə bölgə Türküstan adını almışdır. 840-cı ildə, Uyğur Xaqanlığının Qırğızlar tərəfindən yıxılmasında dini ünsürlər əhəmiyyətli rol oynamışdır. Tibetdən gələn rahiblər uyğurların Mania dinini qəbul etməsində təsirli olmuşlar; beləliklə Türk inanc və ideallarına tamamilə zidd olan bu din, Uyğur Xaqanlığının sonunu hazırlamışdır.

Bununla birlikdə Uyğur Türkləri varlıqlarını davam etdirmiş, daha sonrakı illərdə də müsəlmanlığı seçmişlər. Qaraxanlılar dövründə Türk-İslam mədəniyyətinə əhəmiyyətli qatqılarda olmuşlar. Dövrümüzdə varlıqlarını eyni adla davam etdirirlər. Ancaq bu gün sayları 20 milyonu aşan bu Türk birlikləri, Çin Xalq Respublikası və Sincan Muxtar Uyğur bölgəsində, böyük insan haqları pozuntuları altında yaşayırlar.

## Avarlar

Əvvəl Şərqi Asiyada, daha sonra Mərkəzi Macarıstan olmaq üzrə Orta Avropada dövlət qurdular. Mənşəyi haqqında qəti məlumatlar tapılmayan avarların, Avropa qövmləri üzərində əhəmiyyətli təsirləri olmuşdur. Avropa qövmləri, xüsusilə də slavyanlar, dövlət rəhbərliyi və hərbi mövzuda avarlardan çox şey öyrənmişlər. Üzəngini ilk dəfə Avropaya gətirənlər avarlardır.

Araşdırmaların ortaya çıxardığı nəticələrə görə, avarların dövləti, 9-cu əsrin əvvəlində franklar tərəfindən yıxılmış; avarlar da zamanla xristian birlikləri içində yox olmuşlar.

## Bolqarlar

Böyük Hun Millətini meydana gətirən dəyişik və çox saydakı qövmün dağılmasıyla birlikdə, bunların arasındakı Türk əsilli nəsillərin bəziləri yenidən Cənubi Rusiya düzənliklərinə qayıtdılar. Bir qisim Hun Türkləriylə, bu sıralarda şərqdən eyni sahəyə gələrək yerləşən Onoqur Türkləri ilə qarışdılar. Məhz bu inkişaf Bolqar adı verilən yeni Türk qövmünün meydana gəlməsinə gətirib çıxarmışdır. Onsuz da Bolqar adı, bir-birinə qarışmaq mənasını verən türkcə "bulqamaq" felindən gəlir.

İlk Bolqar Dövləti Qafqazda quruldu. Ancaq Xəzərlərin hücumları səbəbiylə qısa müddətdə dağıldı. Bunun ardından bəzi bolqarlar Balkanlara keçdilər və yeni bir dövlət qurdular. Lakin bu bölgədə olan Slavyan qövmləriylə qarışmaları nəticəsində, Ortodoks Xristianlığı qəbul etdilər və türklüklərini itirdilər.

Xəzər hakimiyyətinə girmək istəməyən bolqarların bir hissəsi şimala yönəldilər; İdil (Volqa) boylarında yerləşərək Moğol işğalına qədər davam edəcək olan bir dövlət qurdular. İslam ölkələri ilə Xəzərlər və Skandinaviya qövmləri arasındakı ticarət yolları üzərindəki bölgələrində ticarət və əkinçilik ilə məşğul oldular. Bolqar şəhəri deyə bilinən paytaxtları, zamanın əhəmiyyətli ticarət mərkəzlərindən biri oldu.

İrəlidə izah ediləcəyi kimi, İdil bolqarları 10-cu əsrin əvvəlində İslamiyyəti seçdilər; 13-cü əsrə qədər rifah içində yaşadılar. Moğolların ölkələrinə hücum etmələrinin ardından buranı tərk edərək Qazan bölgəsində yerləşdilər.

İlk müsəlman Türk birliklərindən olan İdil bolqarları, bugünkü Qazan Türklərinin atalarıdır. Digər Bolqar birlikləri yox olub getdikləri halda, İdil bolqarları müsəlman olmaları sayəsində şəxsiyyətlərini qoruya bilmişlər.

## Xəzərlər

Xəzər Xaqanlığı, 7-ci əsrdə Sabar Türkləri tərəfindən quruldu; Şərqi Avropadakı ilk Türk dövlətlərinin ən qüvvətli və ən uzun ömürlü olanlarından biri olaraq tarixə keçdi. Xəzərlər üç əsr boyunca Qafqazlar ilə Macarıstan

arasındakı geniş torpaqlarda hökm sürdülər. Ticarətlə məşğul oldular, sənətə və dini araşdırmalara əhəmiyyət verdilər, rifah səviyyəsini yüksək cəmiyyət meydana gətirdilər.

Xəzərlərin özlərinə xas dini həyatları diqqət çəkici idi. Xanədan mənsubları Yəhudiliyi, xalq isə İslamiyyət, Xristianlıq kimi fərqli dinləri seçmişlər. Xəzərlər hüzur və barış içində yaşayarlarkən, 9-cu əsrin ortalarında, Peçeneqlər İdil-Harzem ticarət yolunu ələ keçərdilər. Bu vəziyyət, başlıca gəlir qaynağı ticarət olan Xəzər Xaqanlığının zəifləməsinə; Peçeneq və özlərinə bağlı Slavyan (Rus) şahzadəliklərinin hücumlarıyla 10-cu əsrin ikinci yarısından etibarən sürətlə çökməsinə gətirib çıxardı. Dağılan Xəzər birlikləri Şərqdən gələn Türk birlikləri arasında əridilər.

Xəzərlərin dövlət təşkilatı və hərbi sahədə, Slavyan qövmləri üzərində əhəmiyyətli təsirləri olmuşdur. Dərhal xatırladaq, Xəzər Dənizi, adını Xəzər Türklərindən götürmüşdür.

## Qədim Türklərə ümumi baxış

Türklər özlərinə xas xüsusiyyətlərlə tarix səhnəsində yerlərini qazanmışlar. Ailə, Türk cəmiyyətinin təməli idi. Ailələr "uruk" deyilən sülalələri, uruklar da boyları meydana gətirərdi. Boyların siyasi bir-birlik qurmalarıyla "budun" meydana gələrdi. Dövlətin qurulması, bir neçə budunun tək bir mərkəzin rəhbərliyi altında bir yerə gəlməsinə bağlı idi.

Dünya tarixinə nəzər salın, dərhal anlayarsınız ki, Türklər heç bir zaman dövlətsiz qalmamışlar, hər dövrdə bir və ya bir neçə dövlətə sahib olmuşlar. Dövlətin başındakı hökmdar, "yabqu, xan, xaqan, iltebər" kimi adlarla ucaldılmışdır. Hökmdarlar nəzəri və praktik təhsillərini təcrübəli dövlət adamlarının nəzarətində tamamlamışlar; dövlət rəhbərliyində müdriklərdən qurulmuş bir məclislə məsləhətləşmişlər; onların öyüd və nəsihətlərini göz qarşısında saxlamışlar. Müdrik vəzirlər lazım olduğunda hökmdarlara yol göstərmiş, lazım olduğunda onları açıq şəkildə tənqid etmişlər. Bu sistemin xalqın dinclik, ədalət və zənginlik içində yaşamasında əhəmiyyətli bir payı vardır.

Türklərin əsgərlik sənəti, intizamlı orduları və döyüş texnikaları dillərə dastan olmuşdur. Avropa və Asiya qitələrinin böyük dövlətləri, ordu təşkilatlarını nizamlayarkən Türkləri nümunə götürmüşlər.

Qədim Türklərin diqqətə çarpan xüsusiyyətlərindən biri adətlərinə olan bağlılıqları idi. Türk adəti yazılı deyildi; dildən dilə və nəsildən nəsilə çatdırılardı. Hökmdarlar daxil hər kəs mərasimin hökmlərinə əməl etməklə məsul idi. Türk adəti, kriminallar da ehtiva etməklə birlikdə düzgünlük və ədalətdən əsla ayrılmazdı; əsrlərin təcrübəsinin məhsulu idi. Adət, dövlətin bir mənada konstitusiyası kimi idi.

Dövrümüzdə azadlıq və bərabərliyin liderliyini etdiklərini iddia edənlər bilməlidir ki, insan haqq və azadlıqlarının gerçək mənadakı ilk tətbiq edicisi Türklər olmuşdur. Türklər tərəfindən qurulan dövlətlərdə din, dil və irq ayrılığı güdülmədən hər kəsə bərabər davranılmışdır. Professor Hakkı Dursun Yıldız bu gerçəyi, "Bütün tarix boyunca Türklərdə din, dil və irq ayrılığı səbəbiylə Amerika və Avropada hər vaxt rast gəlinən bir qırğına, işgəncəyə və haqların əlindən alınmasına qəti olaraq rast gəlinməmişdir" şəklində ifadə etmişdir.[9]

Diqqət çəkici bir nöqtə, qədim Türk qövmlərində, qadınların kişilərlə demək olar ki, bərabər haqlara sahib olmaları idi. Türk qadınları cəmiyyət həyatının demək olar hər mərhələsində vəzifə sahibləri olmuşlar; yeri gəldiyində döyüşməkdən çəkinməmişlər.

# 2-Cİ HİSSƏ
# TÜRK-İSLAM DÜNYASI

## Türklər ilə müsəlmanlar arasındakı ilk münasibətlər

Bura qədər bəhsi keçən Türk birlikləri, döyüşlər və köçlər nəticəsində Monqolustandan Dunay çayına qədər uzanan olduqca geniş bir bölgəyə yayılmışlar; bir çox fərqli mədəniyyət və inanclara sahib xalqlar ilə tanış olma imkanı tapmışlar. Bu vəziyyət onların müxtəlif dinlərin təsirində qalmalarına səbəb olmuşdur. Bununla birlikdə, irəliləyən səhifələrdə izah ediləcəyi kimi, Türklər əsl şəxsiyyətlərini müsəlmanlıq ilə tapmışlar; əsrlər boyunca İslamiyyətin qoruyuculuğunu və bayraqdarlığını etmişlər.

Türklərin cənuba və qərbə doğru reallaşdırdıqları köçlərin başlıca səbəbi iqtisadiyyat idi. Qərbə köç edən Türklər, İranda Sasani İmperatorluğunun maneəsi ilə qarşılaşınca daha irəliyə gedə bilmədilər. Bunlardan bir hissəsi İrana yaxın bölgələrdə yerləşərkən, bəziləri Hindistana doğru yönəldilər.

Sasani İmperatorluğu, müəyyən müddət Türklər ilə müsəlmanlar arasında bir sədd çəkmiş; Ərəb ordularının Yermuk (634), Qadisiyə (635) və Nihavənd (641) döyüşlərinin ardından İranı ələ keçərmələriylə ortadan qaldırılmışdır. Buralarda məskun olan Türklər, əvvəllər ərəblərlə mübarizə etmişlərsə də, Talas Döyüşündə (751) çinlilərə qarşı ərəblərin yanında yer almışlar. Döyüşdən sonra Çinin Orta Asiyadan çəkilməsiylə bölgəyə ərəblər hakim olmuşlar. Bu tarixdən etibarən də Türklərin haqq din olan müsəlmanlığı tanımaq imkanı yaranmışdır.

Türklərin ərəblər ilə yaxınlaşması nəticəsində, Mavəraünnəhr bölgəsindəki Türklər müsəlmanlığı qəbul etməyə başladılar. Ancaq, ilk müsəlman Türk milləti bu bölgədəkilər deyil, İdil (Volqa) boyunda yaşayan Türklərin meydana gətirdiyi bolqarlar oldu.

10-cu əsrin əvvəlində İdil bolqarları ilə Abbasilər arasında diplomatik əlaqələr quruldu. İdil bolqarları İltebəri, yəni hökmdarı Almışın istəyi üzərinə, Bağdaddakı Abbasi Xəlifəsi özünə din adamı və əsgəri mütəxəssislərdən ibarət olan bir heyət göndərdi. Müsəlman heyətin İdilə çatmasının ardından İdil bolqarları 922-ci ildə toplu şəkildə müsəlman oldular. Beləcə İdil (Volqa)

bolqarları ilk müsəlman Türk dövləti oldu. O illərdə Xəzər Xanları Yəhudiliyi, Uyğurlar Manixeizmi, Şərq Avropadakı Türklər Xristianlığı qəbul etmişlərdi.

Tarixçilərin yazdıqlarına görə, Cümə xütbələrində "Allahım, Bolqar idillərini doğru yola yönəlt" deyilirdi. Hökmdar, atası müsəlman olmadığı üçün onun adının yerinə Abdullah adını istifadə etdi.[10] Bolqar Türkləri o sırada qədim ənənə və adətlərini, bəziləri İslama uyğun gəlməsə də davam etdirirdilər. Digər tərəfdən müsəlmanlığın şərtlərini yerinə yetirmə mövzusunda da çox qərarlı idilər. Necə ki, Başqırd Türkləri o sırada xristian olacaqkən Bolqarlar buna maneə törətdilər.[11]

Digər hadisə, Mavəraünnəhr bölgəsində yerləşən şəhərlərdəki müsəlman Türk əhalisinin artması oldu. Buralarda yaşayan Türklər, maddi imkanlarının çoxunu İslam dinini yaymaq məqsədiylə sərf edirdilər. "Bütpərəst" dedikləri soydaşlarını haqq yola gətirmək üzrə onların ölkələrinə axın edən Türklərə maddi kömək edərdilər, onların yemək kimi ehtiyaclarını qarşılayırdılar. Eyni dövrdə köçəri Qarluq və Oğuz boylarının kütlələr halında müsəlman olduqları görülürdü. Gözə dəyən bir nöqtə də, müsəlman Türklərin sıx olduqları şəhərlərdə, müsəlman Türk alimlərin tarix səhnəsində görünməyə başlamaları idi.

Türklərin islamiyyəti tanımalarında təsirli olan yalnız müsəlman heyətlər deyildi. Bu müddətdə müsəlman tacirlər, dərvişlər və Abbasi ordularında vəzifəli müsəlman Türk əsgərlər də əhəmiyyətli vəzifələr boynuna götürdülər. 19-cu əsrin ortalarında Abbasi ordularında çox sayda Türk vardı. Bu tarixdə, Türklər Bizans sərhədində vəzifə aldılar xristianlara qarşı İslam dünyasını qorumağa; eyni zamanda da İslamiyyəti yaxından öyrənməyə başladılar. Qəhrəman Türk axınçıları unudulmaz müvəffəqiyyətlər qazandılar; Battal Qazi dastanı şanlı tariximizin əhəmiyyətli səhifələrindən biri oldu.

Belə yekunlaşdırıla bilər ki, Türklərin müsəlmanlığa keçidləri 10-cu əsrə qədər yavaş, bu tarixdən sonra isə böyük sürətlə reallaşmışdır.

## Türklər necə tanınırdılar?

Türklərin İslamiyyəti qəbul etməyə başladıqları dövrlər haqqında günümüzə çatan əsərlərin sayı olduqca azdır. Bu səbəbdən İslam dünyasında Türklərin necə tanındıqlarına bağlı məlumatlarımız məhduddur. Zeki Velidi

Togan tərəfindən nəşr olunan "İbni Fadlan səyahətnaməsi" adlı əsəri bəzi işarələr verir. İbni Fadlan, başçılığını etdiyi Abbasi elçilik heyəti ilə bəzi Türk boylarını ziyarət etmiş və müşahidələrini qələmə almışdır. Digər bir qaynaq olan, "Əbu Dülef səyahətnaməsi"ndə də buna bənzər fikirlərdən bəhs edilir.[12]

780-869 illəri arasında yaşamış Ərəb ədibi və mütəfəkkirləri Cahizin "Xilafət ordusu hekayələri" və "Türklərin fəzilətləri" kimi araşdırtmaları mövcuddur.[13] "Türklərin fəzilətləri" adlı əsər Türklərin xarakteri haqqında yazılmış ilk kitabdır. Bəhs edilən əsərdə Türklər, nizamı sevən, qabiliyyətli, eyni zamanda da təvazökar insanlar olaraq tanıdılmışdır. Cahiz, *"Türk tək başına bütün bir cəmiyyət deməkdir"* deyərək Türklərin üstün xüsusiyyətlərinə işarə etmişdir.[14] Eyni kitabda, Türklərin at üzərində keçirdikləri zamanın piyada və yuxuda keçirdikləri zamandan daha çox olduğu; ox atma və ata hakim olma qabiliyyətləri ifadə edilmişdir. Bunlarla yanaşı, digər millətlərin üstünlükləri sayılarkən Türklərin əsgərlikdə ən irəli səviyyədə olduqlarına diqqət çəkilmişdir.

Bəhs edilən kitabda Cahiz, Türklər haqqında tərif dolu ifadələr istifadə etmişdir:

***"Döyüş sənəti Türkə məlumat, təcrübə, siyasət və sair yüksək xüsusiyyətlər qazandırmışdır. Türk daim sözündə durar və hiylə bilməz. Türk Xaqanı hiyləni yalnız döyüşdə də olsa etmək məcburiyyətində qaldığını kədərlənərək edər və ikiüzlü olanları daim ən pis insan sayar... Ərəb ordularını Türklər qədər titrədən başqa bir millət yoxdur. Türklər daim soylarıyla fəxr edərlər, vətənlərinə və dillərinə çox bağlıdırlar. Düşmənləri əsir götürdükdə onlara yaxşılıq və ikram edər, alicənablıq göstərərlər."***[15]

Türk tarixinin izah edildiyi bir qaynaqda, o çağlarda, İslam dünyasının Türklərə yanaşmasını belə izah edilər:

***"Ərəblər Mavəraünnəhrə gəldikləri zaman Türklərin yüksək əxlaqi üstünlüklərə, böyük idarəçilik və hərbi məharətinə sahib olduqlarını görmüşlərdi. Bunların şöhrəti də uzaq İslam diyarlarına qədər yayılır, hər kəs Türklərdən bəhs edirdi. Müsəlmanlar arasında, Türklər İslamiyyətə girdikləri təqdirdə artıq heç bir gücün İslama qarşı çıxa bilməyəcəyi inancı doğulmuşdu. Necə ki, bir çoxları vaxtilə Həzrəti Məhəmmədin Türklərlə***

*əlaqədar tərifli və müjdəli sözlər söylədiyini rəvayət edir, hətta bəzi Quran ayələrində Türklərin eyham edildiyi deyilirdi."*[16]

## İslamiyyət və Türklər

Türklər, İslamı heç bir məcburiyyət olmadan və böyük səmimiyyətlə qəbul etdilər. Bu, bütün tarixçilərin qəti olaraq üzərində ittifaq etdikləri bir mövzudur. Belə olduqda, onların Göy-Tanrı dinləriylə müsəlmanlıq arasında bəzi bənzərliklərin olması əhəmiyyətli rol oynamışdır.

Qədim Türklər, inandıqları yaradıcını "Tenqri" (Göy Tanrı) olaraq adlandırırdılar. Tanrının tək olduğuna və hər şeyi yaratdığına inanırdılar. Öldükdən sonra, yaxşı insanların "uçmaq" deyilən cənnətə, pislərin isə "tamu" olaraq adlandırılan cəhənnəmə gedəcəklərini düşünürdülər. Taleyə inanardılar. İbni Fadlanın yazdıqlarına görə, Türklərdə zina və homoseksualizm qadağan idi; oğurluq edənlər ağır cəzalarla cəzalandırılardı; yaxşılıq etməyə son dərəcə riayət edilərdi.[17] Bütün bunlar Türklərin müsəlman olmalarını sürətləndirən və asanlaşdıran faktorlar idi.

Türklər tarix boyunca müxtəlif dinlərə girmişlər. Buna baxmayaraq İslamiyyət xaricindəki dinlərə girənlər Türklüyünü qoruya bilməmiş; digər mədəniyyət və dinlər içində əriyib getmişlər. İslam dini, milli quruluşa uyğun olduğu üçün, Türklər kütlələr halında bu dini qəbul etmişlər və milli varlıqlarını mühafizə etmişlər. Digər bir deyişlə İslam, bütün Türkləri birləşdirən bir din olmuşdur. Bu həqiqətlər, "Türk tarixindən yarpaqlar" adlı əsərdə belə ifadə edilmişdir:

*"Türklər, müsəlman dinini səmimi olaraq, öz istəkləriylə, heç bir məcburiyyət və kənar təzyiq olmadan kütlə halında qəbul edincə, tarixlərinin yeni bir dövrəsinə ayaq basmış olurdular. Bu yeni dövrə, 10-cu əsrdən əvvəlki minimum 1200 illik dövrədən daha da şanlı idi. Müsəlmanlıq, Türk milli bünyəsi üçün uyğun bir din halına gəldi. Türklər, müsəlman olma surətiylə Türklüyünü kamala çatdırmış, sanki tamamlamışlardı."*[18]

Türklər arasında müsəlmanlıq, daha çox təriqətlər və özünü dinə həsr etmiş xidmət əhli insanlar vəsiləsiylə yayılmışdır. Başqa dinlərin də yayılmış olduğu Mavəraünnəhr bölgəsində, müsəlman alim, hüquqşünas və elm adamlarının yetişməsi və çoxalması İslamiyyətin yayılmasına sürət qazandırmışdır. Bu sırada mədrəsələr qurulmuş; "yüksək İslam" adı verilən yazılı ənənəyə bağlı İslam anlayışı və şərhi tətbiq olunmuşdur.

İlk Quran tərcümələri 10-cu əsrdə farsca tərcüməsiylə müqayisə edilərək sətir aralarına yazılmışdır. Müsəlmanlığın qəbulundan sonra, Quranın yazılı tərcümələri, türkcə yazı dilinin inkişafına və yayılmasına da qatqıda olmuşdur.[19]

Türklərin İslam dinini qəbul etmələri əhəmiyyətli bir inkişafa daha vəsilə olmuşdur. İslamiyyət, Türklərin bayraqdarlığında dünyaya yayılmış; bu vəziyyət də dünya tarixini şəkilləndirəcək bir çox hadisəyə liderlik etmişdir. Professor Erol Güngör bu həqiqəti belə bəyan edir:

***"Türklər İslamı özləri üçün milli din halına gətirdilər, bütün mənlik və səmimiyyətləriylə bu dinə sarılaraq on birinci əsrdən etibarən İslam dünyasının bütün düşmən qüvvələrinə qarşı qorunması işini tək başına yükləndilər.***

***İslamiyyət dövrünə qədər Türklər hər cür yüksək üstünlüyə sahib olan, lakin hələ dünyada öz yerini tam tapa bilməmiş olan bir millət idi. İslam, onun yolunu işıqlandıran bir işıq oldu və Türk Milləti bu işığı izlədikcə həmişə yüksəldi."***[20]

## Tolunoğulları, İhşidoğulları və Sacoğulları

Bilindiyi kimi, tarixdə Türklər tərəfindən qurulan və idarə olunan, lakin xalqının əksəriyyəti Türk olmayan dövlətlər vardır. Bunlar arasında Tolunoğulları, İhşidoğulları və Sacoğulları dövlətlərinin ayrı əhəmiyyəti vardır. Bəhs edilən üç dövlətin qurucuları müsəlman Türklərdir.

Abbasi xəlifəliyi sərhədləri içərisində bir yerə gələn müstəqil ilk Türk dövlətinin qurucusu, Oğuz Türklərindən cəsarət və məlumatı ilə ad salmış Tolun Əhmədir. 868-ci ildə Misir qubernatoru olan Əhməd, buranı

müvəffəqiyyətlə idarə edərkən eyni zamanda qüvvətli bir ordu qurmuş, Bağdad ilə arası açılınca müstəqilliyini elan etmişdir. Misirin iqtisadiyyatını düzəldib xalqı yoxsulluqdan qurtardığı üçün burada olduqca sevilmişdir. Yerinə keçən oğulu Humareveyh zamanında dövlətin sərhədləri Toroslar və İraqa qədər genişlənmişdir. Ancaq onun ardından gələnlər yaxşı rəhbərlik göstərə bilməmişlər; bunun nəticəsində Abbasi qüvvələri 905-ci ilində Misirə girərək Tolunoğulları rəhbərliyinə son vermişlər.

Misirdə qurulan ikinci Türk dövləti İhşidoğulları dövlətidir (935-969). Qurucusu Misir qubernatoru İhşiddir. O illərdə İhşidoğullarının sərhədləri Misirdən Suriyaya qədər olan bölgəni əhatə etmişdir. Ölümündən sonra oğulları başa keçsə də, çıxan daxili qarışıqlıqlardan faydalanan Fatimilər bu dövləti yıxmışlar.

Sacoğulları dövlətinin qurucusu Abbasilərin Azərbaycan və Ermənistan qubernatoru Afşindır. Sacoğulları təxminən qırx il bu bölgədə, Abbasilərdən müstəqil dövlət olaraq varlığını davam etdirmişdir.

## Qaraxanlı dövləti

9-cu əsrdə Qaraxanlılar, Orta Asiyada diqqətə çarpan gücə sahibdilər. 10-cu əsrdə Satıq Buğra xanın İslamiyyəti dövlətin rəsmi dini elan etməsiylə, Qaraxanlı dövləti Orta Asiyadakı ilk müsəlman Türk dövləti oldu. Satıq Buğra xan ilə birlikdə 200.000 Türk ailəsi də İslamiyyəti qəbul etdi.[21] Beləliklə Orta Asiyadakı güclər tarazlığında İslamiyyət yerini almışdır.

Qaraxanlılar, İslamiyyəti yalnız seçməklə qalmamış; onun digər Türk boylarına yayması vəzifəsini də boynuna götürmüşlər. Bu dövrdə xüsusilə Qaşqar bölgəsində, əhatəli İslami işlər görülmüş və bənzərsiz əsərlər yazılmışdır. Dövrün ən əhəmiyyətli kitabları arasında, Yusif Has Hacibin "Kutadqu bilik" (Xoşbəxt edən məlumat) adlı əsəri və Qaşqarlı Mahmudun "Divani lüğəti Türk" adlı əsərləri sayıla bilər. Birinci əsər dövlət rəhbərliyi, ikincisi də dil sənəti sahəsində ilk nümunələri olmuşdur.

İslamiyyət, Türklərə yeni üfüqlər açdı. 11-ci əsr, Türklərin İslam dünyasında gün keçdikcə gücləndiyi bir dövr oldu. Tarixçilərin yazdıqlarına görə, Həzrəti Məhəmməd (s.ə.v)-in müsəlman ərəblərə "Gələcəkdə bu ümmətin əfəndisi Türklər olacaq" dediyinə dair rəvayətlər dildən dilə gəzirdi.

Qaşqarlı Mahmudun kitabının əvvəlində Türklərə hakimiyyət verildiyi, hər kəsin Türklərə möhtac olduğu və bu səbəblə türkcə öyrənilməsi lazım olduğu yazılırdı.

Qaraxanlılar dövrü xüsusilə Türk mədəniyyət və sənət tarixi baxımından əhəmiyyət daşıyır. Bu dövrdə, məskunlaşma mərkəzlərində məscidlər, körpülər, karvansaraylar və bənzəri strukturlar tikilmiş; təhsil qurumları açılmış; Buxara və Səmərqənd elm mərkəzi halına gəlmiş; Türk dili də böyük inkişaf imkanı tapmışdır.

İlk Türk sufisi Əhməd Yəsəvi Qaraxanlılar zamanında yaşadı. Əhməd Yəsəvi və xələfləri, Orta Asiyada İslamiyyətə çağıran elçilər oldular; bu torpaqlarda İslamiyyətin yayılması üçün böyük səy göstərdilər. Anadolu Türk övliyalarının çoxu Əhməd Yəsəvidən təhsil aldı. Əhməd Yəsəvi və onun ardından gələnlər Türk dilini geniş şəkildə istifadə etdilər; beləcə Türklərin İslamiyyəti tanımalarına unudulmaz qatqılarda oldu. Bunun Türk Birliyinin qurulması yolundakı əhəmiyyətli məsafə qət etmələrindən biri olduğu açıqdır.

Qaraxanlı dövləti 13-cü əsrin ilk dörddə birinə qədər ayaqda qaldı; bu tarixdəki Monqol işğalı nəticəsində yıxıldı.

## Qəznəvilər dövləti

Qəznəvilər dövləti, adını Şərqi Əfqanıstanda olan paytaxtları Qəznədən götürmüş; dövrünün ən güclü dövlətlərindən biri olmuşdur. 997-ci ildə Qəznəvi Mahmudun iqtidara gəlməsiylə ən parlaq dövrünü yaşamışdır. Qəznəvi Mahmud müsəlmanlığı yayma mövzusundakı səyləri ilə hər kəsin təqdirini qazanmış; dövlətin sərhədlərini Toxarıstan və Mavəraünnəhrdən Pəncapa, Multan və Sindinin bir hissəsinə qədər genişlətmişdir. Hindistana 17 dəfə səfər təşkil etmiş və Şimali Hindistanı torpaqlarına qatmışdır. Bölgə insanları böyük nisbətdə İslamiyyəti seçmişlər; beləcə indiki Pakistan dövlətinin təməli atılmışdır.

Qəznəvi Mahmudun İslamiyyəti təbliğ etmə yolundakı işləri Bağdaddakı xəlifə tərəfindən də dəstəklənilmiş və ona "Sultan" titulu verilmişdir. Türk tarixində Sultan titulunu ilk dəfə o istifadə etmişdir. Şübhəsiz Qəznəvi Mahmud Türk-İslam tarixinin ən böyük şəxsiyyətlərindən biridir.

Eyni dövrdə, məşhur Türk mütəfəkkiri Əbu Reyhan əl-Birini, Qəznədə işlərini davam etdirmişdir. Bu inkişaf, həmin dövrün Türk-İslam mədəniyyət tarixinin ən əhəmiyyətli çağlarından biri olaraq xatırlanmasında rol oynamışdır. Firdovsinin "Şahnamə"si də yenə bu dövrdə Sultan Mahmuda təqdim edilən əsərlər arasındadır.

Sultan Mahmudun ardından yerinə oğulu Sultan Məsud keçmişdir. Dəndənəkan döyüşündə Qəznəvilər, Toğrul və Çağırış bəylərin əmrindəki Oğuz qüvvətlərinə məğlub olmuş və Səlcuqlu hakimiyyətinə hücum etmişlər.

## Oğuzlar

Türk Millətinin hər dövrdə ən böyük hissəsini meydana gətirən oğuzlar, siyasət və mədəniyyət sahəsində də ən böyük rolu oynamışlar. İslamiyyəti seçmələrindən əvvəl Göytürk dövlətini; İslamiyyətlə tanış olmalarından sonra Xarəzmşah, Ağqoyunlu və Qaraqoyunlular dövlətlərini, Səlcuqlu və Osmanlı İmperatorluqlarını quranlar oğuzların soyundandır. Oğuz adı, qəbilə, boy mənasında olan "ox" sözündən qədim Türk dilində çoxluq şəkilçisi olan "z" əlavəsi ilə yaranmışdır. 24 boy halında yaşayan oğuzlar, boy strukturlarını hər getdikləri yerə daşımışlar.

Oğuzların 24 boyu, Oğuz xanın Gün, Ay, Ulduz, Səma, Dağ və Dəniz adlarındakı altı oğlunun və bu altı oğulun hər birinin dörd oğlunun soyundan törəmişdir. 24 boyun on ikisi Boz oxlar, on ikisi Üçoqlar şəklində adlandırılmışdır. Boz oxların simvolu yay, Üçoqların simvolu ox olmuşdur. (Bu gün Türkiyədə yaşayan Türklərin soy ağaclarına baxılsa, çoxunun 24 Oğuz boyundan birinə mənsub olduğu görülər. Türkiyədəki bir çox yer adı və buralarda yaşayanların adları da Oğuz boylarının adlarıdır.)

Boz oxlar, Oğuz Xanın Gün xan, Ay xan və Ulduz xan adlı oğullarından meydana gəlmişlər: Qayı, Bayat, Alaevli, Qaraevli, Yazır, Döyər, Dodurğa, Yaparlı, Avşar, Qızıq, Bəydili, Qarğın.

Üçoqlar, Oğuz xanın Göy xan, Dağ xan və Dəniz xan adlı oğullarından meydana gəlmişlər: Bayandur, Peçeneq, Çuvaldar, Çəpni, Salur, Ayrım, Alayuntlu, Yüreğir, İğdir, Büğdüz, Yıva, Qınıq.

Peçeneqləri önlərinə qataraq Şərqi Avropaya yönələn Oğuzlar, izdihamlı birliklər meydana gətirdilər; Uz və ya Quz şəklində adlandırıldılar. Ruslar isə bunlara birbaşa Türk adını verdilər. Peçeneqlərin ardından köçlərinə davam edən Uzların böyük hissəsi 1064-cü ildə Dunay çayı keçərək Balkanlara keçdi; digər bir hissəsi bugünkü Ukraynanın cənubunda yerləşdi. Bunlardan bəziləri Qaraqalpaq adıyla tanındılar. 11-ci əsr ortalarında Balkanlarda yurd salan Uz birliklərinin bir hissəsini Vardar düzənliyindəki başqa Türk ünsürlərlə qarışaraq, buranın tam Türk yurdu olmasını təmin etdilər. Uzların qalan hissəsi Dobrucada yerləşərək, bugünkü Qaqauzların təməlini meydana gətirdilər.

### Böyük Səlcuq dövləti

Oğuzların Aral gölü ilə Xəzər dənizi arasındakı bölgədə yerləşən hissəsi, tarixdə yeni cığır açdı. İslam dininin oğuzlar arasında yayılmış vəziyyətə gəlməsiylə digər Türk boyları onları Türkmən şəklində adlandırdılar.

Səlcuq Bəy, Dukak bəyin oğulu idi; Oğuzların Üçoqlar qolundan Qınıqlar boyundan idi. Səlcuq bəyin nəvələri olan Toğrul və Çağırış bəylər dövründə Oğuzlar, 1040-cı ildə, Dəndənəkan döyüşündə Qəznəviləri məğlub edib, Böyük Səlcuqlu dövlətini qurdular. Daha sonra İranı fəth edib, Şərqi Anadolunun qapılarına gəlib çıxdılar. Toğrul bəy ilə Çağırış bəyin birlik və bərabərlik içində hərəkət etmələri, müvəffəqiyyətlərindəki ən əhəmiyyətli faktor oldu. Toğrul bəy, xəlifə tərəfindən Sultan olaraq tanındı; sağlığında Sünni İslam dünyasını eyni çatı altında topladı. Ölümünün ardından yerinə, Çağırış bəyin oğlu Alp Arslan keçdi.

Alp Arslan heç şübhəsiz Türk tarixinin ən əhəmiyyətli adlarından biridir. Türk tarixində bir dönüş nöqtəsi olan, Anadolunun qapılarını açan Malazgirt zəfərinin (1071) memarıdır. Alp Arslan, böyük dövlət adamı və komandir olması ilə yanaşı üstün əxlaqıyla da tanınardı. Bu sətirlər onun səciyyəsini izah etməsi baxımından mənalıdır:

***"Böyük komandir Alp Arslanın saray mətbəxində hər gün əlli qoyun və ya keçi kəsilərək kasıblara paylanılırdı. Sultanın divanında sayıla bilməyəcək***

*qədər çox kasıbların adları qeydli olub bunlara müntəzəm olaraq maaşları verilirdi. O Böyük Sultan bəzən təvafukən xəstə və kasıb bir kimsəni gördüyü zaman, son dərəcə həssaslığa qapılaraq qüssələnərək ağlayıb dərhal köməyinə çatardı"*[22]

Bizanslıların Malazgirt döyüşündən sonra imzalanan müqaviləyə əməl etmədiyinə görə Sultan Alp Arslan komandirlərinə Anadolunun tamamilə fəth edilməsi əmrini verdi. Alp Arslanın yerinə keçən Məlikşah zamanında da bu fəth hərəkətləri davam etdirildi. Kutalmışoğlu Süleyman şah və qardaşı Mənsur kimi xanədan üzvləri ilə Artuk bəy, Tutak, Danişment Qazi, Məngücək, Əbülqasim kimi adların əmrindəki türkmənlər Anadoluya axınlar təşkil etdilər. Anadolunun fatehi olan bu qiymətli komandirlər və ya oğulları hakim olduqları bölgələrdə öz dövlətlərini qurdular. Bunlar, Anadoluda qurulan ilk Türk dövlətləridir. Məlikşahın 1092-ci ildə öldürülməsindən sonra, bu Türkmən bəylikləri daha müstəqil hərəkət etsələr də çoxu siyasi səbəbdən İraq Səlcuqlularına bağlı qaldılar. Anadolunun türkləşməsində əhəmiyyətli rol oynayan ilk Türk dövlətləri, ümumiyyətlə kiçik, məhəlli quruluşda idilər. Ancaq Saltuklular, Danişmentlilər, Məngücüklər və Ardıqlılar digərlərindən daha güclü idilər. Zamanla Anadolu Səlcuqluları, digərləri üzərində hakimiyyət quraraq, Anadoluda Türk birliyini təmin etdilər.

Məlikşah və vəziri Nizamülmülk dövründə, Səlcuqlu İmperatorluğu ən parlaq illərini yaşadı. Ancaq hər ikisinin də öldürülməsinin ardından inkişaf edən bəzi hadisələr Böyük Səlcuqlu İmperatorluğunun dağılmasını sürətləndirdi. Bunlardan ən əhəmiyyətliləri, taxt mübarizələri ilə Xristian dünyasının ortaq hərəkətə keçməsi nəticəsində təşkil edilən Səlib yürüşləri oldu.

## Malazgirt zəfəri

Alp Arslanın Böyük Səlcuqlu taxtına keçməsiylə birlikdə, Anadoluya edilən axınlar təkrar sürətləndi. Bu axınlarda Orta və Cənubi Anadolu başdan başa keçilərək bir çox şəhər alındı. Alp Arslanın bir məqsədi də Misiri fəth edərək İslam dünyasındakı ayrı seçkilik hərəkətlərə son vermək idi. Ancaq o sıralarda başqa bir vəziyyət ortaya çıxdı.

Eyni illərdə Bizansda daxili qarışıqlıqlar hökm sürməkdə idi. Bizans, Türk axınları qarşısında aciz qalmışdı. Yeni imperator Romanos Diogenes Anadolunu itirəcəklərinin fərqinə varanda bunu dayandırmaq və Türkləri Anadoludan çıxarmaq məqsədiylə Anadoluya keçdi; Səlcuqlulara qarşı böyük ordu qurma çalışmalarına başladı. Anadoluya iki səfər təşkil etdi, bəzi təxribatlar verdi, ancaq imperatorun məqsədi Türklərə son və qəti zərbə vurmaq idi. Bu səbəblə, erməni, gürcü; fransız, norman, rus əsgərləri; Türk soyundan Uz və Peçeneq qüvvətlərindən ibarət olan 200 min əsgərdən böyük ordu hazırladı.

Hazırlıqların ardından Bizans ordusu şərqə doğru səfərə çıxdı. Bu sırada Alp Arslan, Misir səfərinə çıxmış, qüvvətləriylə Hələbi əhatə etmişdi. Bizans ordusunun irəliləyişini eşidincə sürətlə geri dönməyə qərar verdi. Yaşlı və yorğun əsgərlərini buraxaraq əmrindəki gənc və dinc qüvvətlərlə Malazgirt yaxınlarına gəldi. Bir neçə dəfə sülh təklif etsə də bunu Alp Arslanın qorxduğunu düşünən Romanos Diogenes sülhü rədd etdi; artıq döyüş qaçınılmaz idi.

Tarixi qaynaqlara görə Bizansın 200 minlik ordusuna qarşı, Səlcuqlu qüvvətləri 50 min nəfər idi. İki ordu Malazgirt düzənliyində yerləşdilər.

İslam ölkələrinin hər yerində, Alp Arslanın zəfər qazanması üçün xütbə oxunur, dua edilirdi. Sultan Alp Arslan 26 avqust 1071-ci ildə cümə günü səhəri təsir edici və coşğulu nitq söylədi:

***"Komandirlərim, əsgərlərim! Biz nə qədər az olursaq olaq, onlar nə qədər çox olursa olsunlar, daha çox gözləyə bilmərik. Bütün müsəlmanların minbərlərdə bizim üçün dua etdiyi bu saatlarda özümü düşmən üzərinə atmaq istəyirəm. Ya müzəffər olar məqsədimə çataram, ya şəhid olar cənnətə girərəm... Əsgərlərim! Məhz atımın quyruğunu bağladım. Bir ər kimi döyüşə girəcəyəm. Üzərimdə sultanlıq əlaməti heç bir şey yoxdur. Şəhid olsam, üzərimdəki bu ağ paltar kəfənim olsun. O zaman ruhum göylərə çıxacaq... Ya Rəbbi! Səni özümə vəkil edir, əzəmətin qarşısında üzümü yerə sürtür və Sənin uğrunda döyüşürəm. Ey Tanrım, niyyətim xalisdir, mənə kömək et. Sözlərimdə yalan varsa məni qəhr et."***[23]

Xəlifə də bütün məscidlərdə oxunmaq üzrə hər tərəfə göndərdiyi xütbəsində belə dua etmişdi:

*"Allahım, müsəlmanlığın bayraqlarını yüksəlt və həyatlarını sənə qulluq uğrunda əsirgəməyən mücahidlərini tək buraxma; Alp Arslanı düşmənlərinə müzəffər et və əsgərlərini mələklərin ilə təsdiq et!.."*

Alp Arslan, əsgərlərinə xitabının ardından qılıncını və toppuzunu götürərək ordusunun başına keçdi. Alp Arslan sayca çox üstün olan Bizans qüvvətlərinə qarşı, Türk döyüş taktikası olan "Turan taktikası"nı müvəffəqiyyətlə tətbiq etdi. Əsgərlərin bir hissəsi döyüş sahəsinin iki yanındakı təpələrdə pusquya durdu. Digər qüvvətlər əvvəl düşmənə hücum etdi, sonra da qaçmış kimi edərək geri çəkildilər. Türklərin təxribata uğradığını zənn edən Bizans qüvvətləri intizamsız bir şəkildə Səlcuqlu qüvvətlərini təqibə başladı və mərkəzdən çox ayrıldılar. Pusquya doğru çəkilən Bizans ordusu, bu tələsini gec fərq etdi. Geri çəkilməyə çalışdıqları sırada ermənilər və bəzi ehtiyat qüvvətlər döyüş sahəsindən qaçdılar. Bizans ordusundakı uzlar və peçenəklər də Türklərin safına keçdilər. Tam mənasıyla əhatəyə alınan Bizans ordusu, axşama qədər sürən Türk hücumlarıyla sanki yox edildi; Diogenes də yaralı olaraq ələ keçirildi. Alp Arslan, imperatorun ümid etdiyinin əksinə ona çox yaxşı rəftar etdi, hörmət göstərdi və onunla bir müqavilə bağlayaraq sərbəst buraxdı.

Malazgirt zəfəri nəticələri etibarıyla həm Türk tarixi, həm də dünya tarixi baxımından çox böyük əhəmiyyət daşıyır. Beləcə Anadolu qapıları Türklərə tamamilə açılmışdır. Anadolunun müxtəlif yerlərində irili xırdalı müsəlman Türk dövlətləri ortaya çıxmış; Türkiyə cümhuriyyətinə qədər uzanan Türkiyə tarixi başlamışdır. Artıq Anadolu, əbədi olaraq Türk ölkəsi olmuşdur. Bu zəfərlə, Türklərin İslam dünyasındakı nüfuzu və liderliyi daha da güclənmişdir.

Malazgirt zəfəri, Avropada da dərin izlər buraxmışdır. Bizansın məğlub olması üzərinə özlərini də təhlükədə görən xristian Avropa, Türklərə qarşı ittifaqlar qurmuşdur. Digər bir ifadə ilə, Xaçlı ittifaqı əslində bu zəfərə bir reaksiya olaraq doğulmuşdur. Səlib yürüşləriylə Türk irəliləyişi dayandırılmaq istənmişdir.

## Türklər Anadoluda necə qarşılandı?

Anadolu, Türklər tərəfindən fəth edilmədən əvvəl Bizans hakimiyyəti altında idi. Ermənilər, gürcülər, sürənilər və yaqubular kimi birliklər Bizans idarəsi altında yaşayırdılar. Ancaq xalq, rəhbərlikdən məmnun deyildi; siyasi, iqtisadi və dini istiqamətdən təzyiq görürdü. Ağır vergi yükü xalqın belini bükmüşdü. Təzyiq siyasətinə müqavimət göstərən azlıqların ya kəndləri yıxılıb yandırılır, ya da mallarına əl qoyulurdu. Ortodoksluq xaricindəki məzhəblərə mənsub xristianlar belə böyük zülm gördülər; təhdidlərlə ortodoks məzhəbini qəbul etməyə məcbur edildilər.

Türklərin Anadoluya ayaq basması, Bizans boyunduruğu altında inləyən azlıqlar üçün bir qurtuluş ümidi idi. Bu gerçəyi ilk fərq edənlər ermənilər oldu. Necə ki, Malazgirt döyüşündə Bizans qüvvətlərindəki ermənilərin döyüş sahəsini tərk etmələri, Diogenesi çətin vəziyyətdə buraxmış və Türklərin döyüşü qazanmasında əhəmiyyətli rol oynamışdı. Ermənilər nə qədər doğru hərəkət etdiklərini Türklərin Anadolunu fəth etmələrinin ardından daha yaxşı anladılar. Alp Arslan və Məlikşah onlara torpaqlarını, haqlarını və azadlıqlarını qaytardılar.

Erməni patriarxı Basilanın Səlcuq Sultanı Məlikşahın vəfatının ardından yazdıqları, Anadolu ermənilərinin müsəlman Türklərə fikirlərini ən gözəl şəkildə ortaya qoyur:

***"Hər tərəfdə sülh və hakimanə bir idarə qurdu. Bütün hökmdarlardan daha ağıllı və qüdrətli idi. Bildiklərimizin hamısından da daha ədalətli olduğundan kimsəyə kədər vermədi. Yüksək fikirləri, ədalətli əxlaqı və şəfqəti ilə özünü hər kəsə sevdirdi. Beləcə müharibə və şiddətlə deyil, könülləri qazanmaq surətiylə heç bir hökmdarın əldə edə bilmədiyi məmləkətlərə sahib oldu. Əgər ömrü vəfa etsə idi, çox sürətlə artan qüdrəti səbəbindən, Avropanı da dövlətinin hüdudları içərisinə qatacaqdı."***[24]

Daha da maraqlısı, Anadoluda yaşayan azlıqların yanında rumların da Türklərin rəhbərliyini seçmələri idi. Gün keçdikcə artan problemlərdən böhrana düşən rumlar da ermənilər kimi, bölgəyə ədalət və barış gətirən Türklərə yaxınlıq duymağa başlamışlardı:

*“Türklərin çox geniş olan dini tolerantlıq və müsəlman, xristian fərqi ayırmadan tətbiq etdikləri ədalətli hökumət sistemi də Bizans tiranlarından bezmiş olan Rum və Erməni əhalisi üçün Türk hakimiyyətini seçmələrinin səbəblərindən idi.”*[25]

Qısacası Türklər Anadoluda qurtarıcı olaraq qarşılandılar. Bunu da əlavə etmək lazımdır ki, döyüşlər, epidemiya xəstəlikləri, Bizansın zorakılıqla və sürgün (məcburi köç ya da hicrət etdirmə) siyasəti səbəbiylə Anadoluda əhali olduqca azalmışdı. Beləcə Türklər sanki tərk edilmiş olan, əkinçilik və heyvandarlığa son dərəcə əlverişli Anadolu torpaqlarında yerləşməyə başladılar. 13-cü əsrdəki Moğol təzyiqi səbəbiylə ikinci köç dalğası daha yaşandı. Beləcə Anadolunun türkləşməsi tamamlanmış oldu.

## Osmanlı İmperatorluğu və müsəlman olmayanlar

Səlcuqlular, Anadoluya gələn Qayı Türklərini Bizans sərhədinə yerləşdirmişlərdi. Məhz bu cür ortaya çıxan Osmanlı bəyliyi bu üstünlüyü yaxşı istifadə edərək qısa müddətdə böyük dövlət halına gəldi. Anadolu Səlcuqlu dövlətinin yıxıldığı əsnada, Bizans torpaqlarındakı Osmanlı fəthləri davam edir; Bizansın xristianlar üzərindəki fəaliyyəti gündən günə azalırdı. Bizans qubernatorlarının siyasi, dini və iqtisadi təzyiqlərindən böhrana düşən azğınlar bir qurtuluş yolu axtarırdılar. Bu illərdə, Biləcik, Yarhisar, İnəgöl və Köprühisar bölgələri Osmanlı rəhbərliyində idi. Buralardakı azlıqların təməl haqq və azadlıqlarına hər hansı müdaxilə olmamışdır; azlıqlar dinlərini və ənənələrini azad şəkildə yaşaya bilirdilər. Osmanlı dövlətinin, torpaqları üzərində yaşayanlara göstərdiyi şəfqətli rəftar qısa zamanda ətrafda eşidildi. Məhz bu vəziyyət, Bizans tərəfindən əzilən insanlar üçün bir qurtuluş oldu; hətta bir çox şəhərin heç bir müqavimət göstərmədən Osmanlı idarəsinə keçmələrinə gətirib çıxardı.

Məsələn, Bursanın fəthi bu şəkildə oldu. Ətraf məskunlaşma mərkəzlərindəki ədalətli və mərhəmətli idarədən təsirlənən Rumlar, Bursanın fəthi əsnasında Osmanlı axınçılarına etiraz etmədilər. Orxan Qazinin “nə səbəblə təslim oldunuz?” sualına Bursa rumlarının verdiyi cavab bu gerçəyin dilə gətirməsi idi:

*"Sənin atan nə zamandır Bursanın kəndlərini zəbt edib özünə bağladı, onlar rahat və təhlükəsizlik içində yaşayırlarmış. Biz də onların rahatlığına həvəs etdik."*[26]

*Türk tarixçiliyinin ən əhəmiyyətli adlarından Dimitri Kantemirin "Osmanlı İmperatorluğunun yüksəliş və çöküş tarixi" adlı əsərində, İznikin Osmanlı rəhbərliyinə keçməsi ilə əlaqədar bu ifadələrə yer verilib:*

***"İznik şəhəri əhalisi özünə (Orxan Qaziyə) elçilər göndərər və həyatlarının bağışlanması və İstanbula getmələri üçün icazə verilməsini istəmişlər. Orxan bəy də gözlənilməyən uca könüllülük edərək, tam sağ-salamat getmələrinə icazə verməklə kifayətlənməmiş, bərabərlərində apara biləcəkləri qədər mal və əşyalarını götürmələrinə icazə vermişlər. Orxan beyin bu mərhəmətli davranışı qarşısında duyğulanan İznik xalqı, malikanə və evlərində azad qalmağı və könüllü olaraq Osmanlı dövlətinə xərac verməyi istəyərlər... Orxan beyin milliyyətinə qarşı olan bu uca könüllülüyü və insanlığının şanı, bütün qonşu ölkələrə ildırım sürətiylə yayılar. O qədər ki, içlərindən bir çoxu mühasirə qorxusundan qaçan tam İzniklilər deyil, Türk qüvvətlərinin hələ çata bilmədiyi o biri şəhər əhalisi də yığın halında İznikə gəlməyə başlayarlar. Bunun nəticəsində İznikin əhalisi bir ildən az bir zaman içində İstanbulla yarışacaq qədər çoxalar."***[27]

Osmanlıların yüksək səciyyələrinin və əxlaqlarının əhəmiyyətli bir nəticəsi də xristianlar arasında İslamiyyətin sürətlə yayılması olmuşdur. Orxan Qazinin oğlu Süleyman Paşa tərəfindən Osmanlı torpaqlarına qatılan bölgələrdəki bir çox xristian, Türk-İslam əxlaqının üstün xüsusiyyətlərindən təsirlənərək müsəlmanlığı seçmişdir. Hətta bəzi hakimlər öz istəkləriylə Osmanlı hakimiyyəti ilə birlikdə müsəlmanlığı da qəbul etmişlər. Bunlardan biri olan Kosa Mihal, Osman Qazi ilə Orxan Qazinin yanında yüksək vəzifə almışdır.

## Türk-İslam ədaləti Rumeli torpaqlarında

Türklərin Anadoluda hakimiyyəti ələ almalarının əvvəlində Anadoluda yaşanan ictimai böhranın bənzəri Rumelidə də yaşanırdı. Xalq rəhbərliyə qarşı ictimai partlamanın kənarına gəlmişdi. Gərək Bizans rəhbərliyi, gərəksə dərəbəylərin qəddar siyasətləri nəticəsində, gündəlik həyat sanki işgəncə halını almışdı. Ortodoks və katoliklər arasında məzhəb qarşıdurmaları sürərkən, boqomil məzhəbinə bağlı olan Boşnaklar iki məzhəbin təzyiqi altında əzilirdilər.

Rumeliyə gedən Osmanlı ordusunun başında Orxan Qazinin oğlu Süleyman Paşa dururdu. Qısa zaman ərzində Balkan ölkələrinin hamısı Osmanlı torpaqlarına qatıldı. İdarəçilərindən məmnun olmayan xalq Osmanlı ordusunu sevinc nümayişləriylə qarşıladı. Osmanlıların Balkanlarda irəliləyişinin asan reallaşması şübhəsiz vətəndaşlarına göstərdiyi mərhəmət və ədalət ilə yaxından əlaqədardır:

*"13-cü əsrin sonlarında və 14-ci əsrin əvvəllərində Bizans şəhərləri iqtisadi və siyasi baxımdan parçalanmışdı. Rəqib hökmdarlar və döyüşçü zadəganların idarəsində ictimai və dini döyüşlərlə zəifləmiş olan Balkan Yarımadası işğal edilməyə əlverişli idi. Türklər ölkəni ələ keçirdikdə, torpağı yoxsul kəndlilərə payladıqları üçün xalq onları qurtarıcı kimi qarşıladı. Böyük torpaq sahiblərini ortadan qaldıran Türklər, Balkanlarda dərəbəyliyə son verib kiçik cütçülərə geniş imkanlar verdilər. Torpağa qovuşan kəndli, Türk idarəsini məmnuniyyətlə qəbul edib sədaqətlə bağlandı. Həm katolik həm də Yunan pravoslav zülmünə məruz qalmış olan Boqomil məzhəbindən bir çox adam Türklərə qurtarıcı gözü ilə baxdılar."*[28]

Osmanlının Balkanlara addım atması bərabərində yalnız iqtisadi sahədə deyil, dini həyatda da böyük rahatlıq mühiti gətirdi. Osmanlı dövləti sərhədləri daxilində yaşayan müxtəlif dinlərə mənsub insanlar həqiqi mənada ilk dəfə inanc və ibadət azadlığına sahib oldular.

## Balkan millətlərinin həqiqi qoruyucuları: Türklər

Balkan millətləri bu gün varlıqlarını davam etdirirlərsə; bunun tək səbəbi, Osmanlı dövlətinin onları məcburi şəkildə türkləşdirmə və müsəlmanlaşdırma siyasəti izləməməsidir. Digər deyişlə, balkan xalqları Türklərə minnət borcludurlar. Osmanlıların Balkanlardakı tətbiqləri Türk-İslam əxlaqı, mədəniyyət və ədalətinin unudulmaz nümunələri olmuşdur. Müxtəlif dinlərə və millətlərə mənsub olan xalqların mədəniyyət və ənənələrini qorumalarına icazə verilmiş; azad şəkildə yaşamaları zəmanət altına alınmışdır.

Rumıniya sabiq Ədliyyə Naziri Constantin Dissescu, rumların Türklərə bəslədikləri hissləri belə dilə gətirmişdir:

***"Kim nə deyirsə desin, biz rumlar bugünkü mövcudiyyətimizi Türklərin ülvi cənabına borcluyuq. İdarələri altına aldıqları millətlərə qarşı həqiqi şəfqət, mürüvvət və tolerantlıq ilə rəftar, onların dillərinə, milli və dini müəssisələrinə icazə verməmiş olsaydılar, onların yerinə biz hər hansı bir qonşu millətin təhkimi altına girmiş olsaydıq, hal-hazırda yer üzündə bir tək Rum qalmazdı"***[29]

Balkanlarda Bizans və dərəbəyilərinə reaksiya olaraq Osmanlı rəhbərliyi altına öz istəkləriylə girən bolqar xalqı, Türklərin Balkanlara girişini sevinclə qarşılayan millətlər arasında idi. Çöldə bizanslılar, serblər və macarlar, içəridə isə öz kralları tərəfindən əzilən bolqarlar çarəni Osmanlı idarəsində tapdılar və milli varlıqlarını mühafizə etdilər:

***"Bolqarıstan Türklərin idarəsinə keçdikdən sonra bolqarların səsləri bir daha çıxmadı. Çünki xalq, Bolqar kralları idarəsində görmədikləri rahatlığı, hüzuru və sakitliyi Türk idarə etməsində tapmışlardı"***[30]

Yunan millətinin başqa cəmiyyətlər içində itib getməməsində Türklərin rolu, tarixçi Nikos Bees tərəfindən belə ifadə edilir:

*“Türk hakimiyyəti dövründə Morada Yunanlılığın davamlılığına xidmət edən amillər (faktorlar) arasında osmanlıların bəxş etmiş olduğu siyasi haqlar böyük rol oynamışdır.”*[31]

Əsrlər boyunca albanlar, elenler və slavyanlarla davamlı mübarizə içində olmuşlar. Albanların yox olmaqdan xilas olmasının iki təməl səbəbi vardır: Osmanlı dövlətinin Balkanlarda ədalətli nizam qurması və albanların müsəlmanlığı qəbul etmələri.

Professor Tayyib Gökbilginin bu şərhi əslində mövzunu çox gözəl yekunlaşdırır:

*“Qərb dünyasının heç bir yerində ayrı bir dinə hətta bir məzhəbə dözə bilməyən və yaşatmayan sistem, Osmanlı dövlətində də mövcud olsaydı, bu gün nə Serb nə Bolqar nə də Yunan və s. adına rast gəlinməzdi. Tarixin müxtəlif dövrlərində adlarını buraxaraq özləri itib yox olan və ya başqa millətlər içində əriyən qövmlər kimi olardılar.”*[32]

## Boşnaklar və Türklər

Balkanlarda yaşayan Boşnaklar Boqomil məzhəbinə bağlı idilər. Bu məzhəb xristianlığın degenerasiya olmuş ünsürlərinin çoxunu rədd edirdi. Bu vəziyyət katolik və pravoslavların böyük reaksiyasına səbəb olurdu. Türklərin Balkanlara gəlmələri böyük zülm görən Boşnaklar üçün ümid işığı oldu. Boqomil məzhəbinə mənsub olan Boşnaklar Türklərin Balkanlara hakim olmasıyla birlikdə Katolik və Ortodokslarla bərabər haqlara sahib vəziyyətə gəldilər:

*“15-ci əsrdə Boqomillərin çəkdikləri çətinliklər o qədər dözülməz dərəcəyə çatmışmış idi ki, artıq bundan xilas olmaq üçün Türklərdən kömək tələbində olmuşdular. Çünki Bosniya kralı və rahibləri, hücumlarını əvvəlcə misli görülməmiş dərəcəyə çatdırmışdılar... 1462-ci ildə Sultan II Mehmet Bosniyanı ələ keçirdiyi əsnada oranın katolikləri krallarını tərk etmişlər. Kralın mövqeyinin olduğu Bobovaç şəhəri qalasının açarları Boqomil*

***mənsublarından olan qubernator tərəfindən Türklərə təslim edildi. Digər şəhərlərlə qalalar da buna tabe olduqları üçün bir həftə ərzində yetmişə qədər qəsəbə padşahın hakimiyyəti altına keçdi... Türk fəthləri başladığı sırada Boqomillər toplu olaraq İslama girdilər.”[33]***

Bosniya-Herseqovinanın fəthi ilə birlikdə Türklərə yaxınlıq duyan kütlələr halında İslam dinini qəbul etməyə başladılar. 15-ci əsrin sonlarında boşnakların hamısı müsəlmanlığı qəbul etmişdi.

Boşnaklar müsəlman olduqdan sonra Osmanlı rəhbərliyində əhəmiyyətli vəzifələrə sahib oldular. Osmanlı tarixindəki doqquz sədrəzəm, çox sayda komandir, qubernator və dövlət adamı Boşnak əslli idi. Bosniya ordusu, həm Avropa səfərlərində Osmanlı ordusunun yanında iştirak edir, həm də Osmanlı İmperatorluğunun ən axırıncı qalası olaraq Qərbə qarşı qoruyuculuq vəzifəsini boynuna götürürdü.

Burada üzərində dayanılmalı tarixi həqiqət daha vardır. O dövrdə, katoliklər tərəfindən əzilən pravoslav serblər də Türklərin Balkan torpaqlarına addım atmasından narahatlıq duymuşdular. Türklərin öz inanclarını istədikləri kimi yaşamalarına icazə verəcəklərindən əmin idilər. Elə də oldu. Türk ədaləti və anlayışlı əxlaqı üç əsr boyunca Serb torpaqlarında hökm sürdü. Serblər, Türk rəhbərliyindən duyduqları məmnuniyyəti onlarla birlikdə döyüşlərə qatılaraq və vergilərini ödəyərək göstərdilər.

## Türklərin digər müsəlman millətlərə etdikləri köməklər

İspaniyanın Cənub-Şərqində qurulan Əndəlüs dövləti, uzun müddət müsəlmanların digər xalqlarla birlikdə hüzur və rifah içində yaşamalarına imkan təmin etmiş; İslam mədəniyyətinin Avropada tanınmasına və yayılmasında böyük rol oynamışlar. Əndəlüs müsəlmanları xristian hücumları qarşısında yox olma təhlükəsi ilə qarşı-qarşıya qalınca, Sultan II Bəyazid elçi göndərərək təcili kömək tələb etdilər. II Bəyazid bu vəziyyətə qeydsiz qalmadı və dərhal Kamal Rəisi vəzifələndirdi. Kamal Rəis əmrindəki əsgərlər İspaniya sahillərinə əsgər apararaq İspaniya Kralına göz dağı verdilər. Həmçinin minlərlə müsəlman Şimali Afrikadakı etibarlı torpaqlara daşındı və ispanların zülmündən qurtarıldı.

16-cı əsrin əvvəlində portuqaliyalıların Hind dənizində nümayişləri səbəbiylə buradakı bəzi müsəlman dövlətlər çətin vəziyyətdə qalmışlardı. Bunlardan biri Qucarat dövləti idi. 1530-cu ildə, Portuqaliya hücumlarından sonra Qucarat hökmdarı, Qanuni Sultan Süleymandan kömək istədi. Buna görə Hind səfərinə çıxılaraq, portuqaliyalılara qarşı Qucarat müsəlmanlarına hərbi köməklik etmişdir. Yenə eyni bölgədə yaşayan Açe müsəlmanları da Portuqaliya təhdidinə qarşı İstanbuldan kömək istədilər, Osmanlı padşahını tanıdıqlarını bildirdilər. Qanuni, Açe müsəlmanlarının bu istəyinə də müsbət cavab verərək Lütfü bəy və bir topçu birliyini bölgəyə köməyə göndərdi. Bu tarixdən etibarən Osmanlı sərhədləri rəsmi olaraq olmasa da feili olaraq Cənub-Şərqi Asiyaya qədər uzanmış oldu.[34]

Şərqi Afrika sahillərində yaşayan zənci müsəlmanlar 1584-cü ildə yenə qurtarıcı olaraq gördükləri Türklərdən kömək istəmişlərdi. Bu çağırışa göstərilən razılıq, Türklərin vətənpərvərliklərinin saysız nümunəsindən biri oldu. Əli bəy, əmrindəki Osmanlı birlikləri ilə Ədən şəhərinə hərəkət etdi. Bütün Keniya sahillərini müsəlman azlıqlara qarşı təhlükə meydana gətirən ünsürlərdən təmizlədi:

***"Osmanlı Türkləri bu ölkələrin imdadına tam zamanında çatmasaydı əgər, buralar şübhəsiz müstəmləkəçi eşikağaları tərəfindən zəbt edilməklə qalmayacaq, bu zəbt İslam dini üçün də ən böyük zərbə olacaqdı. Bundan belə islamiyyətin Orta və Qərbi Afrikada yayılması qalsın, Şimali Afrikada belə (Əndəlüs müsəlmanları kimi) İslam varlığı böyük təhlükəyə düşəcəkdi. Bəlkə də silinib gedəcəkdi... Bu gün sayları milyonlarla ifadə edilən müsəlman afrikalıların harada olursa olsun, Osmanlı Türklərinə qarşı böyük minnət borcu vardır."***[35]

Dünyanın dörd bir tərəfində məzlum xalqların köməyinə yetişən Osmanlı İmperatorluğu, Rus təhdidinə qarşı Krım tatarlarının tək sığınacağı olmuşdu. İsti dənizlərə enməyə çalışan rusların hücumları səbəbiylə yox olma təhlükəsinə məruz qalan Krım tatarları Osmanlı himayəsinə sığındılar. Bunun ardından Qara dəniz sanki bir "Türk gölü" halına gəldi;[36] üç əsr boyunca da bu xüsusiyyətini qorudu.

Qafqaz qədim dövrlərdə də bir çox irq və dindən insanın yaşadığı bir bölgə idi. Qafqazdakı çərkəzlərin köməyinə gedən yenə Osmanlı oldu. 19-cu əsrin ortalarında Rus zülmünə və hücumlarına dözə bilməyərək bölgəni tərk

etmək məcburiyyətində qalan çərkəz müsəlmanlarına qapılarını yalnız Osmanlı İmperatorluğu açdı. Bu illərdə 1.5 milyon Çərkəz, Osmanlı torpaqlarının müxtəlif yerlərində yerləşdirildi.

Osmanlılar, Türkistandakı Türklərə kömək məqsədiylə əllərindən gələni etmişlər. Bununla birlikdə bəzi imkansızlıqlar bu köməyin müəyyən səviyyədə qalmasına səbəb olmuşdur.

## Osmanlı torpaqlarındakı yəhudilərin vəziyyəti

Yəhudilər ilə Türklər arasındakı ilk əlaqələr Böyük Səlcuqlu dövləti dövründə quruldu. O dövrlərdə yəhudilər, Bizansın iqtisadi və dini təzyiqlərindən qaçaraq kütlələr halında Türk torpaqlarına köç etdilər. Bundan sonra Türk torpaqlarındakı yəhudilər, demək olar ki, hər dövrdə dünyanın digər yerlərindəki yəhudilərlə müqayisədə daha yaxşı şərtlərdə yaşadılar.

Osmanlı dövləti qurulanda Bursa da sıx yəhudi topluluğu vardı. Bursanın fəthindən sonra yəhudilər öz dini liderləri tərəfindən idarə olunma haqqına qovuşdular.

Türklərin Balkanlara yerləşmələri yəhudi azlıqları tərəfindən məmnuniyyətlə qarşılandı. Türk ədalət və mərhəmətinin adını eşidən Balkan yəhudiləri, fəthlərin ardından Osmanlı torpaqlarına köç etməyə başladılar. Eyni dövrdə baş rahib İshak Safetti, Avropadakı yəhudilərə Osmanlı torpaqlarına köç etmələri istiqamətində çağırış belə etdi. Həmin dəvətdə, baş rahib bu ifadələrə yer verirdi:

***"Məni dinləyin: Yəhudilər, dünyanın heç bir yerində Türkiyədə olduğu qədər rahat ola bilməz... Bu məmləkət içində öz həyatlarımızı daha rahat yaşayar, istədiklərimizi edə bilərik. Xəyalınızdan nə keçirsə... bütün bunları Türklərin yanında edə bilərsiniz. Sizə kimsə toxunmaz... İndi tənbəllik etməyin, rahat yerə gəlin... Bundan başqa, bu məmləkətin faydaları və xalqının yaxşılığı Almaniyada tapılmaz."***[37]

Avropadan Türk diyarlarına ən böyük yəhudi köçü 1492-ci ildə reallaşdı. Əndəlüs dövləti dağıldıqda qorumasız qalan yüz minlərlə yəhudi,

Osmanlı Padşahı Sultan II Bəyazidin verdiyi icazə ilə Osmanlı rəhbərliyindəki şəhərlərə yerləşdilər. 1492-ci il yəhudi tarixi baxımından bir dönüş nöqtəsi oldu.

Yəhudilərin Türklərə qarşı duyduqları minnətdarlıq, Yəhudi yazar Avram Qalanti tərəfindən dürüst şəkildə belə ifadə edilər:

*"Dünyanın heç bir məmləkətinin yəhudiləri, Türkiyə yəhudiləri qədər himayə görməmişdir. Yəhudilər bunu bilir və yəhudi tarixi də bunu qızıl hərflərlə yazır."*[38]

Yəhudilərin mədəniyyətlərini və dinlərini mühafizə etməsinə icazə verildiyi Osmanlı torpaqlarında beləcə yəhudi əhalisi sürətlə çoxaldı. 16-cı əsrin sonunda yalnız İstanbulda təxminən 150.000 yəhudi azad bir şəkildə yaşamaqda idi.[39]

## Osmanlının üstün səciyyəsi

"Dövləti Aliyyə-i Osmaniyyə", şübhəsiz, Türk-İslam mədəniyyətinin bir şah əsəridir; əsrlər boyunca üç qitəyə hökm etmiş, dünya tarixinin ən uzun ömürlü və ən böyük dövlətlərindən biri olmuşdur. Osmanlını bu cür təsirli və görkəmli edən ünsürlər həm dövlətin üstün əsgəri gücü, həm də Osmanlı padşah və idarəçilərinin ədalət, mərhəmət kimi gözəl xüsusiyyətləri idi.

Tarixə araşdırmaçı və ön mühakimələrsiz bir gözlə baxıldığında, bu gerçək bütün təəccüblü şəkildə ortaya çıxar: Osmanlını "dünya dövləti" halına gətirən ünsürlərin əvvəlində təməlini söykədiyi və gücünü aldığı mənəvi dəyərlər vardır. Adriatikdən Çin Səddinə qədər uzanan geniş torpaqları əsrlərlə hakimiyyəti altında tutan güc, Türk millətinin özündə var olan və Türklərin İslamı qəbul etməsiylə birlikdə əsl şəxsiyyətini tapan əxlaq anlayışıdır.

Osmanlı dövlətinin ucsuz-bucaqsız sərhədləri içində fərqli dinlər, məzhəblər, irqlər, dillər və mədəniyyətlərə sahib olan milyonlarla insan barış və dinclik içində yaşamışlar. Bunun səbəbi Osmanlının məcburiyyət və təzyiqə deyil, ədalət və anlayışa söykənən rəhbərlik modeli olmuşdur. İstər padşahlar,

istərsə dövlətin qabaqcıl rəhbərləri Türk mədəniyyəti ilə yoğurulmuş, İslam tərbiyəsi almış, hər vaxt haqqın və haqlının yanında olan insanlardan meydana gəlmişdir. Osmanlı dövləti tarixdəki digər böyük dövlətlər kimi almaq deyil, vermək düsturu ilə yola çıxmış; getdiyi ölkələrə rifah və mədəniyyət aparmışdır. Məhz bu səbəblədir ki, Osmanlı dövləti dünya tarixində tayina az rast gəlinər, nümunə götürüləcək bir model təşkil etmişdir.

Osmanlı dövləti, bu uca dəyərlər üzərinə inşa edilmişdir. Osman bəyin nəsildən nəsilə, dildən dilə köçürülən bu yuxusu olduqca mənalıdır:

***"Bu yuxuya görə, Şeyxin qoynundan çıxan bir ay Osman Qazinin qoyununa girər; eyni anda göbəyində bir ağac bitər və kölgəsi bütün dünyaya yayılar; ağacın altından dağlar yüksələr və dağlardan da çaylar axmağa başlar. Bu yuxusunu Şeyx Edebalıya izah edən Osman Qaziyə Şeyxin cavabı eynilə belədir: "Haqq Təala sənə və nəslinə padşahlıq verəcək. Mübarək olsun. Qızım da sənin halalın olacaq."*** [40]

Osmanlı dövlətinin qurucusu Osman bəy, vəfat edərkən oğlu Orxan bəyə "Tanrı buyruğundan başqa iş görmə" şəklində öyüd vermişdir.[41] Osman bəy, vəsiyyətində bəhsi keçən gerçəkləri belə dilə gətirmişdir:

***"Həyatın narahatlıqları səndən uzaq dursun. Səni əhatə edən müqəddəsliklə əsla müstebit (qabadayı) olma, baxışlarını zalımlıqdan qaçır. Ədaləti inkişaf etdir və yer üzünə bəzək et...***

***Xristian krallar ilə haqqa söykənən dostluqlar qur. Alimləri daim şərəfləndir; beləcə ilahi ədaləti sağlamlaşdırmış olarsan; və harada olursa olsun bir adamın alim olduğunu eşitsən onu sərvətə boğ, onu yüksəlt və şəfaətini əsirgəmə.***

***Orduların və sərvətin səni heç bir zaman qürurlu etməsin. Ətrafında daim qanunla işıqlandırılmış kəslər olsun və qanunun, krallara dəstək olan tək təməl olduğuna inanaraq, onu daim zərbələrdən qoru. İlahi qanun bizim tək məqsədimiz olmalıdır; atdığımız hər addımda Tanrıya bir az daha yaxınlaşaq.***

*Nə boş təşəbbüslər, nə də səmərəsiz döyüşlərdə vaxtını keçirmə; çünki səhv ehtiraslar dünya imperatorluğunun sonu olar. Mənə gəlincə, mən iman gücünü yaymaq üçün çalışdım. Sən isə mənim arzularımı tamamlayacaqsan.*

*Olacağın mövqe, sənin hər kəsə qarşı böyük bir lütflə davranmağını tələb edir. Xalqına qarşı bir çox tapşırığın var; ona qarşı yaxşılıq və bağışlama ilə davransan xanlıq ünvanına layiq olarsan.*

*Dayanmadan xalqına qarşı necə yaxşılıq edəcəyəm deyə düşünəcəksən. Ancaq o zaman Tanrının lütfkarlığını qazanarsan."*[42]

# 3-CÜ HİSSƏ
# TÜRKÜN ÜSTÜN ƏXLAQI

**"Yüksək Türk! Sənin üçün yüksəkliyin hüdudu yoxdur."**
**(Mustafa Kamal Atatürk)**

Bir millətin dövlət qurma və idarə etmədəki qabiliyyəti, heç şübhəsiz, o millətin özünə xas dəyərləri ilə yaxından əlaqədardır. Bu baxımdan qiymətləndirildiyində Türklərin tarix boyunca qurmuş olduqları böyük dövlətlərin çoxluğu, Türk millətinin təşkilatçılığının bir göstəricisidir. Tarixdə tayı-bərabərinə nadir rast gəlinər bu müvəffəqiyyəti tam mənasıyla qavraya bilmək üçün Türk millətinin incəsənət və mədəniyyətini, üstün əxlaqını, vətən və millət anlayışını, idarə və hərbi strukturu yaxşı tanımaq lazımlıdır.

Türk milləti yalnız özü üçün deyil, eyni zamanda hakimiyyəti altındakı bütün millətlər üçün türkə yaraşar bir şəkildə hərəkət etmişdir. Osmanlı dövlətinin üç qitəyə yayılmış sərhədləri üzərində, onlarla milləti əsrlər boyu sülh içində bir yerdə tutmasının əsasında Türkün yüksək səciyyəsi yatar.

Hər şeydən əvvəl, Türklərdə qan bağına söykənən zadəganlıq, aralarında uçurumlar olan siniflər yoxdur. Türklərdə millət dövlətin, dövlət də millətin xidmətindədir.

Osmanlılarda millət anlayışı yalnız Türkləri deyil, dövlət içindəki bütün insanları əhatə edən bir anlayışın ifadəsidir. Atatürkün "Nə xoşbəxt türküm deyənə" sözü və "Türkiyə cümhuriyyətini quranlara və burada yaşayanlara Türk deyilir" ifadəsi də, bütünləşdirici bir anlayışın ifadəsidir.

İrəliləyən səhifələrdə Türkün yüksək xarakteri tarixdən nümunələrlə gözlər önünə səriləcək. Kənardan baxışla Türkün səciyyəsinə xüsusi yer ayrılacaq. İstər dost olsun, istər düşmən, hər kəsin ittifaqla qəbul etdiyi bu üstün səciyyəyə detallarıyla gözdən keçiriləcək.

## Türkdəki hərbi xidmət

Türklərin ön plana çıxmış üstünlüklərindən biri doğuşdan əsgər olmalarıdır. Türk əsgəri cəsur, fədakar və itaətkardır. Tarix boyunca qurulan Türk dövlətlərinin təməli nizamlı əsgəri təşkilata söykənmişdir. Hərbi xidmət, Türklərdə milli vəzifə olmuşdur. Türklərin mükəmməl hərbi quruluşları və qiymətli komandirləri bütün dünyanın heyranlığını qazanmışdır. Ərəb mütəfəkkir Cahiz, "Türkə qarşı heç bir şey dayana bilməz. Heç kimsə onu, yeyiləcək bir tikə olaraq qəbul edə bilməz"[43] deyərək Türk ordularının üstünlüyünə işarə etmişdir.

Qanuni dövründə 7 il boyunca (1555-1562) Avstriya səfiri olaraq İstanbulda olan Ogier Ghiselin de Busbecq, Türklərin hərbi istiqamətindən belə bəhs edər:

***"Türklər, səfər əsnasında səbirli, dözümlü və sərfəli hərəkət edərlər. Türk sistemini öz sistemimizlə müqayisə edincə gələcəyin başımıza gətirəcəyi şeyləri düşünərək titrəyirəm. Bu ordu qalib gələcək və əbədi olacaq, biz isə məhv olacağıq. Çünki Türklər heç sarsılmamış qüvvətə sahib olduqları kimi, özlərinə xas zəfər vərdişləri, məşəqqətlərə dözüm qabiliyyəti, nizam, intizam, qənaətkarlıq və oyanıqlıq var."[44]***

Türk dövlətlərinin quruluş və inkişaflarında hərbi təşkilatlanmanın əhəmiyyəti inkar edilə bilməz. Tarix boyunca Türk orduları digər bütün millətlərin həm qibtə etdikləri, həm də qorxduqları, çəkindikləri bir güc olmuşdur. Türk əsgəri, düşmənlərinə qorxu, dostlarına isə böyük güvən vermişdir. Bu güvən İmamı Əzəm tərəfindən "Qılınc, Türklərin əlində olduğu müddətcə sənin dininə zaval yoxdur"[45] şəklində dilə gətirilmişdir. Bu sözlə İmamı Əzəm, Türk əsgəri yer üzündə olduğu müddətcə İslam dininə kimsənin zərər verə bilməyəcəyinə işarə etmişdir.

Türk ordusu təşkilatlanma və döyüş nizamı baxımından özünə xas xüsusiyyətlərə sahib olmuş; digər dövlətlər üçün bir model təşkil etmişdir. Atı bir döyüş vasitəsi olaraq ilk dəfə istifadə edən Türklər, bu sayədə böyük sürət və manevr qabiliyyəti əldə etmişlər, qısa zamanda geniş coğrafiyalara hakim olmağı bacara bilmişlər. Qədim Türk silahları da ordunun hərəkət qabiliyyətinə uyğun olaraq yüngül və təsirli silahlardan meydana gəlmişdir.

Türklər, at üzərində hərəkət halında ikən belə silahlarını böyük ustalıqla istifadə etmişlər.

Türk silahları növ və xüsusiyyət baxımından zaman içərisində inkişaf edib çoxalmışdır. Bununla birlikdə hərbi struktur və döyüş taktikası, təməl xüsusiyyətlərini bütün Türk cəmiyyətlərində mühafizə etmişdir. Mərkəz, sağ və sol qollardan ibarət olan ordu, döyüş nizamında özünə xas taktikalara müraciət edərək, özündən daha böyük orduları belə təxribata uğratmağı bacarmışdır. Düşmənin məhvi ilə qəti nəticə alınan bu döyüş taktikası "çöl taktikası", "turan taktikası" və "bozqurd taktikası" kimi müxtəlif adlarla tarixə keçmişdir. Bu taktika, saxta ricat (geri çəkilmə) ilə düşmən ordusunu mərkəzdən uzaqlaşdırıb pusquya salmaq, ordunun sağ və sol qolları ilə bir aypara içərisinə alaraq məhv etmək əsasına söykənmişdir. Dəndənəkan döyüşündə, Malazgirt meydan müharibəsində, Mohaçda və hətta Dumlupınar döyüşündə bu üsul müvəffəqiyyətlə tətbiq olunmuşdur.

Türklərdə bir dövlətin dağılmasının ardından qurulan dövlət demək olar eyni hərbi quruluşu davam etdirmişdir. Qədim Türklərdə mülki şəxs və ya əsgər deyə ayrım edilməmişdir. Tanınmış mədəniyyət tarixçimiz Bahəddin Ögel, Türklərdə "xalq ordu, ordu da xalqdır" deyərək mövzunu yekunlaşdırmışdır. Yəni ordu ilə xalq iç içə girmişdir. Bir bölgəyə səfər ediləcəyi zaman yalnız əli silah tutan kəslər deyil, onların ailələri də səfərə qatılmışlar. Fəth edilən bölgələri əsla talan etməmişlər; oralarda yerləşərək Türk-İslam mədəniyyət və əxlaqını yaymışlar.

Türklərdə şəhidlik və qazilik mərtəbələri müqəddəsdir; Allah yolunda, din, vətən və millət uğrunda döyüşərkən ölənlər "şəhid", sağ qalanlar "qazi" olaraq adlandırılarlar. Yaxın tariximizdəki Qurtuluş savaşı "ölsəm şəhid, qalsam qazi" inancıyla qazanılmışdır. Bu ölüm-qalım döyüşündəki zəfərimiz, Türk əsgərlik ruhunun ölmədiyini və ölməyəcəyini bir daha bütün dünyaya göstərmişdir.

Allah Quran ayələrində peyğəmbərlərin və onlarla birlikdə inkar edənlərə qarşı mübarizə edən müsəlmanların güclü xarakterlərini və heç bir çətinlik qarşısında qorxmayan üstün əxlaqlarını nümunə verir. Məhz Türk dövlətlərinin üstün hərbi gücü və qəhrəman xarakteri də saleh müsəlmanların ayələrdə bildirilən üstün xarakterləriylə çox böyük bənzərliklər göstərir. Bunun səbəbi Türklərin sahib olduqları İslam əxlaqıdır. Allah Ali-İmran surəsində iman edənlərin güclü və cəsur xarakterlərini bu şəkildə təsvir edər:

**Neçə-neçə peyğəmbər olmuşdur ki, bir çox dindarlarla birlikdə vuruşmuşlar. Onlar Allah yolunda başlarına gələnlərə görə nə ruhdan düşmüş, nə zəifləmiş, nə də düşmənə boyun əymişlər. Allah səbir edənləri sevir. Onların dedikləri ancaq: "Ey Rəbbimiz! Günahlarımızı və əməllərimizdə həddi aşmağımızı bizə bağışla; qədəmlərimizi sabit et və kafir qövmə qələbə çalmaqda bizə yardım et!" - olmuşdur. (Ali-İmran surəsi, 146-147)**

**Acizlik göstərməyin və kədərlənməyin. Möminsinizsə, üstün olacaqsınız. (Ali-İmran surəsi, 139)**

## Ədalət və tolerantlıq

Tarixdə heç bir millətə nəsib olmayacaq qədər uzun ömürlü dövlətlər quran Türk milləti, idarəsi altındakı müxtəlif irq və dindən insanlara hər zaman ədalətli və tolerant davranmışdır. Osmanlı İmperatorluğu bunun gözəl bir nümunəsidir; torpaqlarındakı müxtəlif dinlərə, dillərə və mədəniyyətlərə sahib insanların inanclarına, ənənələrinə müdaxilə edilməmişdir. Osmanlı sərhədləri içərisində olan heç bir bölgə müstəmləkə rəftarı görməmiş; ayrım edilmədən hər birliyə mədəniyyət paylaşılmışdır. Padşahlar və idarəçilər bu tətbiqin təqibçiləri və dəstəkçiləri olmuşlar.

Türklər, Quranda **"Şübhəsiz Allah, sizə əmanətləri əhlinə təslim etmənizi və insanlar arasında hökm etdiyinizdə ədalətlə hökm etmənizi əmr edir..."** (Nisa surəsi, 58) şəklində bildirilən əmri əsrlərdir tətbiq etmişlər; tətbiqə də davam edəcəklər. Türklər, yaşamaqdan şərəf duyduqları İslam əxlaqının bir gərəyi olaraq, öz əleyhinə olsa belə ədaləti tətbiq etməkdən imtina etməmişlər. Ayələrdə bildirilən bu əxlaq xüsusiyyəti onların üstün ədalət anlayışının da təməlini meydana gətirir:

**Ey iman gətirənlər! Şahidliyiniz özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri olub ədaləti qoruyun. Əleyhinə şahidlik edəcəyiniz şəxslərin varlı və ya kasıb olmasından asılı olmayaraq Allah onların hər ikisinə daha yaxındır. Arzularınıza uyaraq haqdan uzaqlaşmayın! ... (Nisa surəsi, 135)**

**... Sizi Məscidulharama daxil olmağa qoymayan camaata qarşı olan kin-küdurət sizi təcavüz etməyə sövq etməsin. Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir. (Maidə surəsi, 2)**

Boğdan bəyi Böyük Stefanın oğullarına vəsiyyətində bu həqiqət belə dilə gətirilmişdir:

*"Bəlkə də yaxında himayəyə möhtac olacaqsınız. Əsla rusa yanaşmayın, xaindir sizi yox edər. Lakin özünüzü Osmanlılara əmanət edin, ədalətli və mərhəmətlidirlər."*[46]

Mohaç döyüşündə Türklərə əsir düşən Bartholomeus Georgievicin 1544-ci tarixli "Ənənə və adətlər" adlı əsərində, Türklərin səfər zamanında belə ədaləti təmin etdiklərini belə diqqət çəkilmişdir:

*"Döyüş zamanında elə möhkəm intizam vardır ki, heç bir əsgər ədalətsiz bir şey etməyə cəsarət edə bilməz. Ədalətsizlik edən heç acımadan cəzalandırılar. Qarovul və intizamı təmin edənlər vardır... Keçib gedilən yolların sahilindəki bağ və bağçalarda sahiblərinin icazəsi olmadan, bir alma belə qoparılamaz."*[47]

## Namusa verilən əhəmiyyət

Türkün namuslu həyat yaşamaq mövzusundakı dayanıqlılığı qərbli yazıçıların kitablarına mövzu olmuşdur. Məsələn, Türkiyəni gəzən fransız yazıçı Aubry da la Motraye, Türk millətinin namusuna düşkünlüyünü xüsusilə ifadə edərək başına gələnləri belə izah etmişdir:

*"Bir çox tanışlarımın və xüsusilə həmişə dalğınlığımdan ötəri hər kəsdən çox mənim başıma gəlmiş bir hal vardır: Müxtəlif dükanlardan xırdavat satın alarkən pul vermək üçün qoynumdan çıxardığım kisəmi və yaxud vaxtı anlamaq üçün baxdığım saatımı əşya yığınları arasında unutduğum çox olmuşdur. Bəzən də verəcəyim pulun iki mislini buraxdıqdan sonra dükançının mallarını ortadan götürüb səhvən çox verdiyim pulu görməsinə vaxt qalmadan çəkib getdiyim olardı. Məhz bu dalğınlığıma baxmayaraq Türk dükanlarında heç bir zaman tək bir qəpiyim itməmişdir; çünki bu kimi vəziyyətlərdə dükançılar arxamdan adam göndərmişlər və hətta əgər dalğınlığımın nəticəsini anladıqdan sonra dükana dönməmişsəm, unutduğum şeyi qaytarmaq üçün iqamətgahımın olduğu Beyoğluna qədər adam göndərib dəfələrlə məni axtarmışlar. Məsələn bir gün kiçik bir Türk dükanının qarşısında dayanmışdım. Bu yelpikçi dükanında Türk insanlarının yay istilərində istifadə etdikləri yelpiklər satılırdı. Bir çoxlarına baxdım; sadə dəridən və ən ucuz olanlarından birini alıb pulunu verdikdən sonra çəkilib getdim... Aradan tam üç həftə keçdikdən sonra bir gün təsadüfən yelpik aldığım dükanın qarşısından keçərkən, yelpikçi məni görər görməz çağırıb saatımı göstərdi... Əlimə təslim etdi. Mən bu Türk namuskarlığının daha yüzlərlə misalını saya biləcək vəziyyətdəyəm. Şəxsən öz başımdan keçən hadisələr otuzdan çox olduğu halda, bunların heç birində heç bir zaman Türklərin namuskarlıqdan ayrıldıqlarını görmədim."*[48]

Görüldüyü kimi, insanlar arasında ayrım etməmək və hər şərtdə düzgünlükdən ayrılmamaq Türkün səciyyəsinin bir parçasıdır. Bu, onun Quran əxlaqına görə yetişdirilməsindən qaynaqlanmaqdadır. Allah ayələrində iman edənlərə bu şəkildə əmr etməkdədir:

**... Elə isə ölçüyə və çəkiyə tam riayət edin, insanların əşyalarını əksik verməyin və yer üzü islah olunduqdan sonra orada fəsad törətməyin. Əgər möminsinizsə, bu, sizin üçün daha xeyirlidir. (Əraf surəsi, 85)**

**...Çəkidə həddi aşmayasınız. Əşyaları tərəzidə insafla çəkin və çəkini əskiltməyin. (Rəhman surəsi, 8-9)**

İsveçin İstanbul səfirliyində olmuş və 17-ci əsr Osmanlısını izah edən ən əhəmiyyətli əsər sayılan "Tableau General de Empire Ottoman" (Osmanlı İmperatorluğunun ümumi tablosu)-nun yazarı Mouradgea D'Ohsson da Motrayeninkinə bənzər təsbitlər etmişdir:

*"Osmanlı Türkləri, digər fəzilətləri qədər namuskarlıq, dürüstlük və düzgünlük kimi Quranın ən qüvvətli hökmlərinə söykənən üstünlükləri etibarıyla da layiqi təqdirdirlər... Osmanlı Türklərinin mədhisənsəyə ediləcək üstünlüklərindən biri də verdikləri sözə ümumiyyətlə sadiq olmaları, həmcinslərini aldatmaqdan və təhlükəsizliyi sui-istifadə ilə insanların sadədilliyindən istifadəyə cəhd etməkdən və yaxud saflıqlarından istismar etməkdən vicdan əzabı duymalarıdır. Öz millətdaşlarına qarşı bütün rəftarlarına hakim olan bu hissəyə, hansı din və məzhəbə mənsub olursa olsun bütün xaricilərə qarşı da riayət edərlər. Bu nöqtədə müsəlmanla müsəlman olmayan arasında heç bir fərq güdməzlər... Fəzilətlə ictimai nizamın idaməsi baxımından fövqəladə qiyməti olan bu fikirlər qanun əsaslarıyla Quranın bu gözəl ayələrinə söykənir:*

- *Heç kimi aldatmayın; ölçünü tam doldurun; doğru çəkin; sözlərinizdə, andlarınızda öz əleyhinizə belə olsa düzgünlükdən ayrılmayın.*
- *Müqavilələrinizlə bazarlıqlarınızda hiyləgərlikdən qaçının.*
- *El malını haqsız yeyən, qarnını yandıracaq bir atəş yemiş olar."*[49]

## Türklər etibarlı insanlardır

Türklər fəth etdikləri bütün torpaqlarda etibarlı xarakterləriylə tanınmışlar. Bu xüsusiyyət, onların Quran əxlaqını nümunə götürüb yaşamalarının bir nəticəsidir. Allah Quranda iman edənlər üçün **"O kəslər ki, əmanəti danmır və əhdlərini pozmurlar.** (Məaric surəsi, 32) şəklində bildirir.

Türklərin Türk-İslam əxlaqından qaynaqlanan etibarlı xarakterləri yalnız öz xalqlarının deyil, bu dövrə şahid olan bütün müsəlman olmayanların da dilə gətirdikləri açıq-aşkar həqiqətdir. Necə ki, 19-cu əsrdə İstanbulda bir neçə il qalan tarixçi A. Ubicini, "La Turquie Actuelle" (Aktual Türkiyə) adlı kitabında o dövrü obyektiv bir şəkildə təsvir etmişdir. Ubicini, Türk

diyarlarının əmin yerlər və Türklərin də son dərəcə etibarlı olduqlarını belə izah etmişdir:

*"Bu böyük paytaxtda (İstanbulda) dükançı hər kəs tərəfindən məlum namaz saatlarında dükanını açıq buraxıb getdiyi və gecə evlərin qapıları adi qıfılla bağlanıldığı halda, ildə 4 oğurluq hadisəsi belə olmaz...*

*Əyalətlərdə də iffət və istiqamət eyni dərəcədədir. Son zamanlarda (Daily-News) qəzetində nəşr edilən məktubda bir ingilis səyyahının izah etdiyi bu mənqibəyi lütfən dinləyin:*

*Bu gün öz əşyamla, yol yoldaşım olan köhnə bir Macar zabitinin əşyasını çatdırmaq üzrə bir kəndlinin yük avtomobilini kirayəyə götürdüm. Sandıqlar, qarderoblar, paltolar, kürklər, şallar hamısı açıqda idi. Buralarda yatağın xəyali belə mövcud olmadığı üçün, gecə üstünə uzanmaq üçün mən bir az quru ot satın almaq istəyincə son dərəcə nəzakətli bir Türk mənə müşayiət təklifində oldu. Kəndli də öküzlərini qoşqudan çıxarıb bizim bütün əşyamızla birlikdə küçənin ortasında buraxdı. Mən onun uzaqlaşdığını görüncə:*

*Burada biri qalmalı dedim. Yanımdakı Türk heyrətlə soruşdu:*

*Nə üçün?*

*Əşyalarımızı qorumaq üçün.*

*Müsəlman Türk bu cavabı verdi:*

*Aa! Nə ehtiyac var. Əşyalarınız bir həftə gecə-gündüz burada qalsa belə toxunan olmaz.*

*Mən bu sözü qəbul etdim və döndüyümdə hər şeyi yerli-yerində olduğunu gördüm. Bu nöqtəni də unutmamalı ki, o sırada İslam əsgərləri mütəmadi olaraq gəlib keçirlərdi... Bu hadisə bütün London kilsələrinin kürsülərindən xristianlara elan edilməlidir; içlərindən bəziləri yuxu gördüklərini zənn edəcəklər: Artıq yuxularından oyansınlar!"*[50]

Burada diqqət edilməli əhəmiyyətli bir nöqtə vardır. Türklər haqqında mənfi düşüncələr daşıyan xaricilər belə bu həqiqəti təsdiq etmişlər. 18-ci

əsrdə İngiltərənin İstanbul səfiri olaraq çalışmış Ceyms Porterin etiraf mahiyyətindəki açıqlamaları belədir:

*"Türkiyədə yol kəsmə hadisələriylə ev soyğunçuluqları və hətta fırıldaqçılıq və quldurluq hadisələri sanki məchul kimidir. Müharibə vəziyyətində olsun, sülh vəziyyətində olsun, yollar da evlər qədər əmindir; xüsusilə ana yolları izləyərək təkmil (bütün) imperatorluq ərazisini ən mütləq bir təhlükəsizlik içində başdan başa qət etmək hər zaman mümkündür; daimi bir nəqliyyat hərəkəti ilə yolçu sayının çoxluğuna baxmayaraq hadisələrin fövqəladə azlığına heyrətlənməmək əldə deyil; bir çox illər ərzində ancaq bir tək hadisəyə təsadüf edilə bilər."*[51]

Jean Antoine Guerin 1747-ci ildə Parisdə nəşr olunan "Moeurs et Usages des Turcs" (Türklərin ənənə və vərdişləri) adlı əsərində, Osmanlı torpaqlarındakı insanların təhlükəsizliyinin təminat altında olduğuna diqqət çəkilmişdir:

*"Gərək İstanbulda, gərək Osmanlı İmperatorluğunun bütün şəhərlərində hökm sürən təhlükəsizlik və asayiş, heç bir tərəddüdə imkan buraxmayacaq surətdə isbat edir ki, Türklər heç bir zaman görülməmiş bir dərəcədə mədənidirlər..."*[52]

## Düzgünlük və dürüstlük

Müxtəlif vəsilələrlə Türkiyədə olan xaricilərin ortaq fikri vardır. Müsəlman bir Türk ilə iş gördüklərində müqaviləyə ehtiyac olmadığını, sözün kafi olduğunu ifadə edərlər. Əlbəttə bu vəziyyət Türk-İslam əxlaqının təbii nəticəsidir. Quran əxlaqına sahib olan müsəlmanlar Bəqərə surəsində "... **əhdləşdiklərində əhdlərinə vəfa göstərənlər..."** şəklində təsvir edilər. Ayənin davamında isə **"Məhz bunlar, doğru olanlardır və muttaki olanlar da bunlardır."** (Bəqərə surəsi, 177) şəklində buyurular.

Fransız generallarından Comte də Bonneval, Türklərin dürüstlüyünə heyran qaldığını belə ifadə etmişdir:

*"Haqsızlıq, monopoliya, oğurluq kimi cinayətlər Türklər arasında demək olar yox kimidir. Qısacası istər vicdanı bir əqidədən, istər cəza qorxusu nəticəsində yaranan olsun, o qədər dürüstlük göstərərlər ki, insan çox vaxt Türklərin doğruluğuna heyran qalar."*[53]

Bir Türk tacirin dürüstlük mövzusundakı dəqiqliyi başqa bir qaynaqda belə dilə gətirilir:

*"Xaricidən gələn parça tacirinin Osmanlı ölkəsində parça emalatxanasının mallarını bəyənib hamısını almaq istədikdən sonra, mal sahibinin parça toplarını yığarkən bir top parçasını ayırdığını görüb bu hərəkətinin səbəbini soruşması üzərinə, Osmanlı taciri "Onu sənə verə bilmərəm, qüsurludur" cavabını vermişdir; xarici tacirin "Ziyanı yox, əhəmiyyətli deyil" deməsinə baxmayaraq Osmanlı taciri o parça topunu verməməkdə dirəşərək, "Mənim malımın qüsurlu olduğunu söylədim bilirsiniz. Lakin siz onu öz məmləkətinizdə satarkən, alıcılarınız orada mənim bunları sizə söyləmiş olduğumu bilməyəcəklər. Beləcə də müştərilərinizə qüsurlu mal satmış olacağam. Nəticədə Osmanlının qüruru və şərəfi təhqir olacaq, bizi də hiyləgər sanacaqlar. Onun üçün bu qüsurlu topu əsla sizə verə bilmərəm..." deyərək parçasını verməməsinin səbəbini izah etmişdir."*[54]

Türkləri digər millətlərdən ayıran xüsusiyyətlərdən biri Türklərin hiylə və yalan bilməmələridir. İslam dini, Türklərin gözəl əxlaqi xüsusiyyətləri mənimsəmələrini, pisləri isə rədd etmələrini təmin etmişdir. Bu həqiqət 19-cu əsrə aid bir qaynaqda belə izah edilər:

*"Milli səciyyəli xalqın orta təbəqəsində, yəni sənətləriylə yaşayan və zənginlərlə kasıblar arasındakı zümrəni təşkil edən insanlar arasında axtarmalıyıq. Məhz bu təbəqəyə mənsub olan Türklər arasında ictimai və ailəvi fəzilətlər, öz ehtiyaclarına və xüsusilə ilk rəsullar dövrünə layiq nəzakətli davranış qaydalarına uyğun təhsil səviyyəsi ilə birləşər. Namuskarlıq Türk tacirinin xüsusiyyətidir... Rumlarla qarışıq olmayan Türk kəndlərində həyatın məsumiyyətiylə ənənə və adətlərin sadəliyi çox diqqətə layiqdir və*

*hiyləgərliklə fırıldaqçılıq oralarda tamamilə yoxdur."*[55] *(İngilis yazar T. Thornton)*

Fransız səyyah Du Loirin 17-ci əsrdəki bu təsbiti mövzunu yekunlaşdıracaq mahiyyətdədir:

*"Heç şübhəsiz ki, əxlaq baxımından Türk siyasəti ilə mədəni həyatı bütün dünyaya nümunə ola biləcək vəziyyətdədir."*[56]

## Əhdə vəfa

Türklər vədlərində durmağa və sözlərini yerinə yetirməyə son dərəcə əhəmiyyət verərlər. Bu, İslam əxlaqını yaşayan insanların sahib olduqları çox üstün bir xüsusiyyətdir və bir çox Quran ayəsində iman edənlərin bu xüsusiyyəti xəbər verilir:

**Allahla bağladığınız əhdə sadiq olun; möhkəm and içdikdən sonra andlarınızı pozmayın. Çünki siz Allahı özünüzə zamin etmisiniz. Şübhəsiz ki, Allah sizin nələr etdiyinizi bilir. (Nəhl surəsi, 91)**

**... Əhdə vəfa edin. Çünki hər kəs əhd barəsində sorğu-sual olunacaqdır (İsra surəsi, 34)**

**Onlar, əmanətlərinə və əhdlərinə riayət edənlərdir. (Muminun surəsi, 8)**

Türklərin bu mövzudakı qətiyyətləri və etibarlılığı Qərbli qaynaqlarda da geniş şəkildə ifadə edilmişdir:

*"Türklər vədlərinə dindarana bir sədaqət göstərərlər."*[57] *(Comte də Bonneval)*

*“Müsəlman Türklər andları ilə birlikdə əhdlərinə də son dərəcə sadiqdirlər. Lakin Allahın adını ağızlarından salmamaq vərdişinə baxılarsa, sözlərinə Cənabı Haqqı şahid göstərmədən heç bir şey söyləmək istəmədikləri aydın olar. O təqdirdə bir and təbiri olaraq Vallah sözünü istifadə edərlər. Bir şeyi təsdiq üçün Billah sözünü də əlavə etdikləri kimi, son bir qətiyyət mərtəbəsi izafə etmək üzrə əksərən Tallahi sözünü də əlavə edərlər.”*[58] *(Mouradgea d'Ohsson)*

## Təvazökarlıq

A. Brayer, 19-cu əsrdə Parisdə nəşr olunan “Neuf annees a Constantinople” (Konstantinopolda doqquz il) adlı əsərində, Türk təvazökarlığı üzərində dayanmış; bunun qaynağının Quran olduğunu belə ifadə etmişdir:

*“Müsəlman Türklər arasında təkəbbür və qürur sanki bilinmir. Quranın ən şiddətlə qadağan etdiyi təmayüllərin biri də budur... Bir tərəfdən də davamlı olaraq təvazökarlıq təlqin edilər... Məhz bundan ötəri müsəlman Türkün yerişində təmkin və ehtişam olmaqla birlikdə, qətiyyən qürur və əzəmət yoxdur. Daim yavaş səslə danışar; əl və qol hərəkətlərində heç bir zaman zorla hökm edən bir əda sezilməz; xidmətində şirinlik və asanlıq vardır.”*[59]

Bir ayədə iman edənlərin təvazökar xarakterləri bu şəkildə təsvir edilər:

**Mərhəmətli Allahın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara xoşagəlməz bir söz dedikdə: “Salam!” – deyərlər. (Furqan surəsi, 63)**

## Türk nəzakəti

Lüğətlərdə yer alan "İstanbul əfəndisi" və ya "Osmanlı bəyəfəndisi" kimi təbirləri araşdırsanız, bunların Türklərin nəzakətliliyini, incəliyini və mədəniliyini izah etmək üçün istifadə edildiklərini görərsiniz. Hər cür sünilikdən uzaq və səmimi nəzakətə, Türk cəmiyyətinin hər seqmentində rast gəlmək mümkündür. Türklər bu istiqamətləriylə də dünya millətlərinə nümunə olmuşlar.

Bu vəziyyət, müxtəlif Qərbli araşdırmaçıların əsərlərində də tez-tez dilə gətirilmişdir:

*"... Müsəlman-Türk nəzakətindən bəhsə məcbur olduğumu zənn edirəm... (Nəzakət) Türklərdə əksinə milli səciyyələrini təşkil edən sarsılmaz haqlılıq və ədalətlə xeyirxahlıq ruhunun təbii nəticəsidir. Onsuz da Quranda nəzakətə aid ayələr vardır və o müqəddəs qanunun bütün düsturları kimi bu ayələr də eynilə və hərfi-hərfinə tətbiq edilər."[60] (A. Brayer)*

*"(Türk qayıqçıları) Son dərəcə nəzakətlidirlər. Sanki bir hərb halını xatırladan qarışıqlıqlar içində belə insan heç bir təhqirə uğramadan və hətta heç bir küfr sözü eşitmədən hədəfə çatdığını görüncə heyrətlər içində qalır."[61] (Antoine-Laurent Castellan, yazar, rəssam, səyyah)*

*"Paşasından küçə satıcısına qədər istisnasız hamısında bir dərəbəyi ehtişamı vardır. Hamısı eyni tərbiyəni görmüş və bir cür zadəganlıq təmkini içində yetişmiş olduqları üçün, əgər paltar fərqləri olmasa, İstanbulda aşağı təbəqənin mövcud olduğunu ilk baxışda heç kimin fərq etməsinə imkan ola bilməz... Həqiqətən, görünüşə görə İstanbulun Türk xalqı Avropanın ən nəzakətli və ən mədəni camaatıdır."[62] (Edmondo da Amicis, yazar)*

## Xeyirxahlıq

Xeyirxahlıq, xeyriyyəçilik kimi fəzilətlər Türk əxlaqının ayrılmaz hissələridir. Türkün insaniyyəti, qonaqpərvərliyi, xeyir və yaxşılığı əsrlər boyunca dillərə dastan olmuşdur. Türklər heç bir qarşılıq gözləmədən etdikləri köməklər səbəbiylə, dost-düşmən bütün dünya millətlərinin hörmət və təqdirini qazanmışdır.

Mövzuyla əlaqədar olaraq xarici əsərlərdə bu tərif dolu ifadələrə rast gələrik:

*"Heç bir istisnası olmamaq şərti ilə bütün Türklər xeyir sevərlər; nə din fərqinə, nə də ehtiyac sahiblərinin keçmiş hərəkət və hallarına baxmadan bütün möhtaclara kömək edərlər. Çünki onların nəzərində hər hansı bir şaki (quldur) həyat dəyişdirib mükəmməl bir vəli ola bilər. Məhz bundan ötəri Türk xeyir və yaxşılığından heç kimsə məhrum edilməz."[63] (Comte də Bonneval, Fransız general)*

*"Bütün gəzintilərimdə Türklərin nəvazişlikləriylə lütfkarlıqlarını göstərən bir çox vəziyyətlərlə qarşılaşdım. Şahid olduğum dəlillər məni bu millətin yaxşı ürəkli və insanı minnətdar edəcək hərəkətlərə çox meylli olduğuna... razı salmış oldu. İstanbul ətrafındakı gəzintilərimdə mən həmişə bu millətin lütfkarlığıyla qonaqpərvərlik eşqinə şahid oldum. Rast gəldiyim hansı Türkə yol soruşsam, dərhal mənə rəhbərlik etmə təklifini edir, yemək və içəcək şeylər barəsində əlindən gələn hörmətdə qüsur etməmək surətiylə də həmişə eyni nəzakətliliyi göstərirdi."[64] (L.H. Delamarre)*

*"Türklərin nəzərində xeyir və yaxşılıq imandandır... Türklər qədər sözün tam mənasıyla insaniyyətpərvər heç bir millət bilmirəm."[65] (A. Ubicini)*

*"Türklərin riayət etdikləri İslamın beş şərtinin dördüncüsü də zəkatdır... Türklər bu şərtin əməlində qüsur etməzlər, çünki çox xeyir sevərdirlər; din və məzhəb ayırd etmədən istər müsəlman, istər xristian, istər yəhudi olsun, bütün möhtaclara kömək edərlər; onun üçün Türklər arasında kasıba çox az rast gəlinər... Bəzisi hələ həyatda ikən sərvəti ilə kasıba baxar, bəzisi ölərkən*

*xəstəxanalar təsis edər, yaxud körpülərlə karvansaraylar və yaxud yol kənarlarında bulaqların inşaatı üçün böyük sərmayələr verər; hətta bir çoxları da bu xeyir və yaxşılığı hələ sağlıqlarında edərlər; bəziləri ölərkən nökərlərini və kənizlərini azad edərlər; pulları ilə xeyir edə bilməyənlər əsas yolların təmirində çalışaraq, yol kənarındakı su anbarlarını dolduraraq, sellərdə suların ətrafında dayanıb sərnişinlərə təhlükə işarəsi verərək qollarıyla xeyirli işlər görərlər, bütün bunlara müqabil qətiyyən pul almazlar və hətta əgər təklif ediləcək olsa pul üçün deyil, qarşılıqsız çalışdıqlarını söyləyərək rədd edərlər."[66] (M. Thevenot)*

*"Xeyir və yaxşılığı tək Quran ilə Türk imamları tərəfindən yaxşıca təlqin və təşviq edilmiş olmaqla qalmayıb xalq tərəfindən də o qədər sədaqətlə və elə bir əməkdaşlıq ilə tətbiq edilər ki, bütün Türkiyə ilə Krımda dilənçiliyin və yaxud dilənçiliyi peşə seçmiş kasıbların nə olduğu belə məlum deyil."[67] (Aubry da la Motraye)*

*"Dünyada əsirlərə, kölələrə, nökərlərə və hətta məhbuslara müsəlman Türklərdən daha yaxşı baxan və daha yaxşı rəftar edən heç bir millət yoxdur."[68] (Mouradgea d'Ohsson)*

Türklərin bu sözlərdə ifadə edilən gözəl əxlaq xüsusiyyətləri daha əvvəl də vurğuladığımız kimi, onların Quran əxlaqına olan bağlılıqlarının bir nəticəsidir. Onlar həyatlarının hər anında, döyüşdə, sülhdə, bir ölkəni fəth etdiklərində, özlərinə düşmənlik bəsləyənlər ilə qarşı-qarşıya olduqlarında, əhəmiyyətli qərarlar alaraq həmişə ədaləti təmin etmiş, insanlara yaxşılıqla davranmış, onlara qarşı anlayışlı olmağı və haqpərəstliyi təməl düstur etmişlər. Ayələrdə İslam əxlaqının insana qazandırdığı gözəl xüsusiyyətlərdən bir neçəsi bu şəkildə bildirilər:

**...Allaha, Axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisalehlərdəndirlər. (Al-İmran surəsi, 114)**

**O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da mallarından Allah yolunda xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir. (Al-İmran surəsi, 134)**

**Mühacirlərdən əvvəl Mədinədə yurd salmış, sonra da iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır. (Həşr surəsi, 9)**

**Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər və deyərlər: "Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik! (İnsan surəsi, 8-9)**

## Təmkin

Xarici yazıçılar, tədqiqatçılar və səyyahlar Türklərin təmkinindən olduqca təsirlənmişlər. Ciddiliyin, hər seqmentdən və hər yaşdan Türkün ortaq xüsusiyyəti olduğu müxtəlif əsərlərdə belə ifadə edilmişdir:

*"Türklər ciddi və düşüncəlidirlər... Türklərin ümumi xüsusiyyətləri olan ciddiliklə təmkin, nəzakət təzahürləriylə salamlaşma mərasimlərinə böyük bir heybət izafə edər."[69] (T. Thornton)*

*"Osmanlı Türklərinin milli səciyyəsini təşkil edən təmkinin, ciddiliyin təsviri asan deyil. Dünyada hüzur və sakitliyə bundan daha mübtəla millət yoxdur... Bir az fövqəladə bir şey və məsələn bir əcnəbi paltarı, qəribə bir şey, qəribə bir heyvan görəcək olsa bir az dayanar, soyuqqanlılıqla baxar, gülümsəyər və daha çox əylənməyə lazım görməyərək yoluna davam edər. Küçədə toplanmaq, birini qovmaq, sevinc və yaxud heyrət daşqınlıqlarına qapılmaq kimi hallar heç bir müsəlman Türk şəhərində xalq arasında belə heç bir zaman görülməyən hərəkətlərdir."[70] (Mouradgea d'Ohsson)*

*"Türk uşaqları başqa məmləkətlərdəkilərə bənzəməzlər. Nə səs-küy edərlər, nə də ağlayarlar. Şərqdə keçirdiyim üç ilə yaxın zaman ərzində heç bir Türk uşağının qışqırıb çağırdığını eşitmədim. Məktəbə getdiklərini gördüyüm balaların rəftarları sakit, gedişləri eynilə yaşlı başlı osmanlılar kimi ağır idi."[71] (A. Ubicini)*

## Danışma üslubu

Türklərin danışıqlarına şahid olan bəzi qərbli müşahidəçilər, Türklərdəki gözəl xitab formasını belə izah edərlər:

*"Bu millətin o qədər şirin danışıq tərzi vardır ki, bütün mədəni millətlərə nümunə ola bilər."[72] (Charles Mac Faralana)*

*"Qəzəb ilə intiqam hissinin məhsulu olduğu qədər qumarbazlığın da təbii nəticəsi olan söyüşbazlıq xristian məmləkətlərində müdhiş surətdə və bütünlüklə kafircə sərf edildiyi halda, Türkiyənin nə küçələrində eşidilə bilər, nə də evlərində eşidilər. Bu halın bizim üzlərimizi qızardacaq və bizi heyrətlər içində buraxacaq tərəfi də budur ki, Türklərin tək ağızlarında deyil, dillərində də küfr sözləri yoxdur. Onlar tək "Vallah" deyə Allaha and içərlər."[73] (Du Loir)*

## Türklərdə ailə

Ailə hər zaman Türk cəmiyyətinin təməli olmuşdur. Türkün üstün xarakterinin meydana gəlməsində ailə tərbiyəsinin xüsusi yeri vardır. Ailə bağları beşikdən məzara qədər davam edir. Övlada şəfqət və söhbət ilə ana-ataya sevgi, hörmət və itaət Türklərin əlamətidir. 19-cu əsrdə İstanbulda olan bir araşdırmaçının mövzuyla əlaqədar müşahidələri bunlardır:

*"Kişilərdə də qadınlarda da övlad sevgisi çox aşkardır. Türklərin həftə tətilinə rast gələn cümə günü və xüsusilə Ramazan və bayram günləri küçələrdə müsəlman Türkün sinəsini qabardan oğlunun əlindən tutub yavaş-yavaş gəzdirdiyi, uşaq yorulanda qucağına alıb, sonra davam etdiyi kafedə yanına oturdub şəfqətlə xitab etdiyi, övladına tam bir ana diqqəti ilə baxdığı, qocalarından gənclərinə qədər bütün digər müsəlman Türklərin də çubuqlarını buraxıb uşağa maraqla baxdıqları və irəlidə (İnşallah) qocalıq dəstəyi olacaq bir oğul sahibi olduğu üçün atanı təbrik etdikləri görülər... Bu şəfqət təzahürlərinə başqa məmləkətlərdə də rast gəlinər; lakin arada dağlar qədər fərq vardır! Bəzi boş mənfəət qayğıları, əyləncə düşkünlükləri, çox vaxt qadınların da iştirak etdikləri ticari rəftar narahatlıqları, qısacası başqa məmləkətlərin hər şeyləri uşaqlara qarşı şəfqətlərini azaltdığı halda, hərəm həyatı əksinə bütün bu hisslərin bir mərkəzdə toplanıb artmasını təmin edir. Məhz bundan ötəri Türkiyədə uşaqlar yetişib adam olduqları zaman analarıyla atalarını yanlarında saxlamaqla fəxr etdikləri və kiçik ikən onlardan gördükləri şəfqətə qarşılıq verməklə bəxtiyar olduqları halda, başqa məmləkətlərdə çox vaxt uşaqlar yetkinlik çağına girər girməz analarıyla atalarından ayrılır, maliyyə mənfəətləri barəsində onlarla çəkişə-çəkişə münaqişə edir və hətta bəzən özləri rifah içində yaşadıqları halda onları səfalətə yaxın bir həyat içində buraxır və onlara qarşı sanki yadlaşırlar."[74] (A. Brayer)*

## Ətrafa verilən dəyər

Avropada heyvanlar və ağacların qiyməti bilinməzkən, Türklərin bunları qorumaq üçün təşkilatlar, vəqflər və xəstəxanalar qurduqları tarixi bir gerçəkdir. Bu vəziyyəti şəxsən öz gözləriylə görən avropalı tədqiqatçılar heyrətlər içində qalmışlar:

*"Türk şəfqəti heyvanlara belə şamildir. Bunları bəsləmək üçün vəqflər və maaş alan insanlar vardır; bu adamlar küçə başlarında itlərlə pişiklərə ət paylayarlar. Bu heyvanlar o sədəqəyə alışmış olduqları üçün, baxıcılarının səslərini o qədər yaxşı tanıyarlar ki, eşidər eşitməz dərhal küçə başına yığışmaqda heç bir zaman qüsur etməzlər... Bar gətirməyən ağacların*

*quraqlıqdan qorumaq üçün bir işçiyə maaş verib sulanmalarını təmin edəcək qədər xeyir və yaxsılıqda irəli gedən... müsəlmanlara da rast gəlinər. Bir çox Türklər də sırf azad etmək üçün quş satın alarlar... Qəssablar hər gün müəyyən miqdar pişik və it bəsləməklə mükəlləf qılınar. Şamda xəstələnən pişiklərlə itlərin müalicəsinə məxsus bir xəstəxana vardır."[75] (Jean Antoine Guer)*

*"Türklərin təbiət gözəlliklərinə o qədər hörmətləri vardır ki, əgər bir ağac olan yerdə ev tikmək istəsələr, damlarının ən gözəl zinəti saydıqları bu ağaca kafi gələcək bir açıq yer saxlayarlar. İşin doğrusunu istəsəniz, bir bacanı gözəl bir ağaclıqla müqayisə edin də ondan sonra mənə Türklərin haqlı olub olmadıqlarını söyləyin."[76] (Lady Craven)*

*"Türklər canlı və cansız məxluqatın hamısı ilə yaxşı dolanarlar: Ağaclara, quşlara, itlərə, nəhayət Allahın yaratdığı hər şeyə hörmət edərlər; bizim məmləkətlərdə başı boş buraxılan və yaxud işgəncə edilən bu yazıq heyvan cinslərinin hamısına şəfqət və mərhəmətlərini şamil edərlər."[77] (Lamartine)*

## Türklərdə təbiət sevgisi

Məşhur Fransız şair Lamartine, Türklərin təbiət gözəlliklərinə olan sevgisini və estetik duyğusunu belə təsvir etmişdir:

*"Bu sarayların xüsusiyyəti, Türk millətinin bir səciyyə xüsusiyyətini göstərər: Təbiət anlayışı və təbiət eşqi... Gözəl mənzərələrə, parlaq dənizlərə, kölgəliklərə, bulaqlara, qarlı dağ təpələriylə əhatə olunmuş böyük üfüqlərə qarşı bəslənən təmayül bu millətin ən böyük meylidir.*

*Onun bu hissində əsas və mənşəyini xatırlamaqdan xoşlanan və bütün zövqləri təbii və sadə olan bir millətin xatirəsi sezilər. Məhz bu millət padşahlarının sarayını, yəni paytaxtın mərkəzini bütün imperatorluğun və bəlkə də bütün dünyanın ən gözəl təpəsinin yamacına yerləşdirmişdir.*

*Bu sarayda Avropa saraylarının nə daxili ehtişamı, nə o əsrarəngiz şəhvanilikləri görülə bilər. Bunda tək ağacların eynilə toxunulmamış bir meşədə olduğu kimi ola bildiyi qədər və əbədi surətdə inkişaf etdiyi, suların şarıldadığı və göyərçinlərin dəm çəkdiyi geniş bağçalar vardır. Burada daim açıq saxlanılan bir çox pəncərəli otaqlar, bağçalarla, dənizlərə hakim eyvanlar və qəfəslərinin arxasına oturan padşahlar üçün həm tənhalığın dadını, həm o sehrli Boğaz mənzərəsinin zövqünü eyni zamanda hiss etmək imkanını təmin edən qəfəsli köşklər vardır.*

*Türkiyənin hər tərəfində belədir; hünkarla xalq, böyüklərlə kiçiklər məskənlərinin tənzimində həmişə eyni ehtiyaca, eyni hissə tabedir: Gözəl bir üfüq mənzərəsiylə gözlərin işıqlanması istənər. Yaxud da əgər evlərinin vəziyyətiylə yoxsulluğu uyğun deyilsə, kimsəsiz torpağın bir küncündə heç olmazsa bir ağac, bir qoyun, bir neçə quş və beş on göyərçin olmasını istəyərlər."*[78]

## Sağlamlıq və təmizlik

Avropa millətləri sağlamlığa zərər verən şeylərdən çəkinməyi və təmizliyi Türklərdən öyrənmişlər. Avropada epidemiya xəstəliklərin yayıldığı və avropalıların təmizliyin nə olduğunu bilmədikləri dövrlərdə, Türklərin təmizliyi və səhhəti tarixi sənədlərlə sabitdir:

*"Həm bədənlərini tərtəmiz saxlamaq, həm sağlamlıqlarına xidmət etmək üçün Türklər hamama çox gedərlər. Onun üçün şəhərlərdə bir çox gözəl hamamlar mövcud olduğu kimi, heç olmazsa bir tək hamamı olmayan heç bir kənd yoxdur. Bütün hamamlar həmişə eyni şəkildə tikilmişdir və aralarında bəzilərinin daha böyük və mərmərlərlə daha çox bəzənmiş olmasından başqa heç bir fərq yoxdur...*

*Türklər çox yaşayarlar və az xəstə olarlar. Bizim məmləkətlərdəki böyrək xəstəlikləri və daha bir çox təhlükəli xəstəliklərin heç birini bilməzlər. Elə zənn edirəm ki, Türklərin bu mükəmməl səhhətlərinin başlıca səbəblərindən biri də tez-tez hamama getmələri və yeyib içmədəki diqqətləridir. Çünki az yemək yeyərlər, xristianlar kimi qarışıq şeylər*

*yeməzlər, ümumiyyətlə içki aləmləri qurmazlar və daim idman edərlər."*[79] (M. Thevenot)

*"Türk evlərində təmizlik maksimum dərəcədədir: Döşəmə taxtaları xalçalar və Misir həsirləriylə örtülüdür; başmaqlarla ayaqqabıların nərdivan qarşısında çıxarılması adət olması etibarı ilə, otaqlarda, qonaq otağında palçıqlara və ayaq izlərinə çox nadir rast gəlindiyi halda, Bütün evlər hər həftə mütəmadi olaraq təmizlənir."*[80] (M. Thornton)

*"... Sünnət olmaq və bədəndəki tükləri aradan qaldırmaq, saçları kəsmək, geniş paltarlar geymək, gündə beş dəfə dəstəmaz almaq, hər təbii ehtiyacın ödənməsi və ən əhəmiyyətsiz çirkləri yuyunub təmizlənmək, yeməkdən sonra əl və ağız yumaq, hər həftə ev təmizləmək, həftədə bir dəfə və hətta əksərən bir neçə dəfə hamama gedib çox ucuz yuyunmaq kimi adətləri ilə Türkləri görərik."*[81] (A. Brayer)

## Comərdlik

Türklər qarşılıq gözləmədən bulaqlar, yeməkxanalar, mehmanxanalar, məktəblər tikdirmişlər; bu məqsədlə vəqflər qurmuşlar; üstəlik etdikləri köməklərdə din və millət fərqi güdməmişlər. Türklərin ən kasıbından ən zəngininə comərd insanlar olduqları avropalı səyyahların qələmə aldıqları əsərlərdə də yazılmışdır. Qonaq olduqları Türklərin onlardan pullarını və mallarını əsirgəməmələri, xarici adamları çox duyğulandırmışdır.

Səlcuqlu Sultanı Məlikşah ilə böyük vəzir Nizamülmülk arasında keçən bu hadisə, Türklərin comərdliyinə gözəl bir nümunədir. Bir dəfə Nizamülmülk, kasıblara və sufilərə ildə 300.000 dinar vermək ittihamı ilə Sultana şikayət edilmişdir. Müxaliflər bu qədər yüksək məbləğdəki pul ilə İstanbulun belə fəth ediləcəyini iddia edərək Sultanı, vəzirin əleyhinə təhrik etməyə çalışmışlar. Məlikşah vəziyyəti Nizamülmülk soruşanda bu cavabı almışdır:

*"Ey aləmin Sultanı! Allah sənə və mənə, qullarından heç kimə nəsib olmayan lütf və lütfkarlıqda olmuşdur. Buna qarşılıq sən, Allahın dinini yüksəltməyə çalışan, Onun Əziz Kitabını daşıyan kəslərə ildə 300 min dinar sərf edirsənsə çoxdurmu?"*[82]

Osmanlı mədəniyyətinin gözəl ənənələrindən biri, imkanı yerində olan ailələrin ramazanda iftara dəvət etdikləri qonaqları yola salarkən "diş kirayəsi" adı altında bir miqdar pul və ya qiymətli əşyanı hədiyyə etmələri idi. Bu sayədə ehtiyac içində olanlara, qürurlarını incitmədən kömək edilərdi. Haqqında danışılan yardımlar böyük miqdarlara çatardı. Məsələn, Rıfat Paşanın bir Ramazan sonu diş kirayəsi hesabı cəminin 5000 qızıl olduğu bilinməkdəydi.

## Türk-İslam mədəniyyəti

Türklərin müsəlmanlığı qəbul etmələri həm İslam aləmi, həm də dünya tarixi baxımından əhəmiyyətli nəticələr doğurmuşdur. Türklər, İslamiyyətə girər girməz nizamsızlıq içində olan İslam dünyasının qoruyuculuğunu boynuna götürmüşlər. Səlcuqluların Abbasi xəlifələrini himayə etmələri; Türklərin qərbdən gələn Səlib yürüşlərinə, şərqdən gələn Monqol axınlarına qarşı sədd meydana gətirmələriylə İslam dünyası dağılmaqdan xilas olmuşdur. İslamiyyətə döyüş açmağa cürət edənlər, qarşılarında həmişə Türk millətini görmüş və əriyib getmişlər. Min ilə yaxın bir müddət Türk milləti, müsəlmanlığın bayraqdarlığını etmiş; beləcə İslam ölkələri böyük təhlükələrdən xilas olmuşlar. Türklər bu uca məqsəd uğuruna, lazım olduğunda canlarını sevə-sevə verməkdən çəkinməmişlər.

Türk milləti İslamı yalnız xarici düşmənlərə qarşı deyil, daxili düşmənlərə qarşı da müdafiə etmişdir. İslamı daxildən yıxmaq istəyən və bu məqsədlə müsəlmanlar arasında azğın inanclar yaymağa və bölücülük etməyə çalışanlara aman verilməmişdir. Türklər İslami dəyərlərin qorunması üçün heç bir fədakarlıqdan çəkinməmişlər.

İslamiyyətin dünyaya təbliğ edilməsi vəzifəsini Türklər, ərəblərdən götürmüş; bunu da müvəffəqiyyətlə davam etdirmişlər. Əvvəl Asiyada islamiyyətin yayılmasına xidmət etmişlər; daha sonra qərbə yönəlmişlər.

Anadolunun Türk və İslam torpağı olmasının ardından Avropada və Afrikadakı fəaliyyətlərinə sürət vermişlər. Türk-İslam tarixinin ən böyük hadisələrindən biri Malazgirt zəfəri digəri də İstanbulun fəthi olmuşdur. Peyğəmbərimizin "İstanbul əlbəttə fəth olunacaq. Onu fəth edən komandir nə gözəl komandirdir. Onu fəth edən əsgər nə gözəl əsgərdir" şəklindəki müjdəsi, Fateh Sultan Mehmet ilə onun əsgərlərinə nəsib olmuşdur.

Türk milləti hər getdiyi yerə İslam mədəniyyətini, İslam ədalətini və əxlaqını aparmış; Türklərin idarəsində yalnız müsəlmanlar deyil, digər dinlərə və millətlərə mənsub insanlar da hüzur və güvən içində yaşamışlar.

Həqiqi mənada Türk birliyi, Türklərin İslama bərk-bərk sarılmalarıyla reallaşmışdır. Dövrümüzdə dünyanın hər yerindəki Türklər müsəlmandırlar. Bununla birlikdə müsəlman olmayan Türk soyundan gəlmə birliklər də vardır; ancaq bunlar başqa dinlərə girməklə Türk olmalarını tamamilə unutmuşlar; digər millətlərin içində assimilyasiya olmuşlar.

Türklər İslam mədəniyyət və incəsənətinə əhəmiyyətli qatqılarda olmuşlar. Maturidi məzhəbinin qurucusu Əbu Mənsur Maturidi, Peyğəmbərimizin hədislərini Səhihi Buxari adlı kitabda cəmləyən Məhəmməd ibn İsmayıl Buxari, böyük İslam mütəfəkkiri və alimi İmam Qəzali, Mövlana Cəlaləddin Rumi, Türk millətinin yetişdirdiyi çox saydakı alimdən yalnız bir neçəsidir. Bir çox Türk alimi, yazdıqları qiymətli əsərlərlə əsrlər boyu insanları aydınlatmışlar.

11-ci əsrdə Səlcuqlu vəziri Nizamülmülk tərəfindən Bağdadda qurulan Nizamiyyə mədrəsələri yeni bir cığır açmışdır. Nizamiyyə mədrəsələri müasir universitetlərə liderlik etmişdir. Bu dövrlərdəki qədim Yunan mədəniyyəti əsərləri də geniş şəkildə araşdırılmışdır.

Farabi, Biruni və İbni Sina kimi Türk alimləri özlərindən sonrakı əsrlərdə elmə liderlik edəcək əsərlər buraxmışlar. Onların işləriylə tibb, fəlsəfə, riyaziyyat, fizika, astronomiya, həndəsə sahəsində çox qiymətli əsərlər ortaya çıxmışdır. Bunlar daha sonra xristianlar tərəfindən Avropaya daşınmışdır. Dövrümüzün elminə gedən yolun daşları müsəlman Türk alimləri tərəfindən döşənilmişdir.

Türk arxitektura üslubunun bənzərsiz nümunələrini məscidlər, mədrəsələr, saraylar, qəsrlər, bazarlar, karvansaraylar və bulaqlarda görmək mümkündür. Türk memarları tərəfindən tikilən bir çox bənzərsiz sənət əsəri indiki vaxtda varlıqlarını qoruyurdu.

Yazı, cild, çini, miniatür sənətləri ilə dulusçuluq, toxuculuq, daş və mədən işçiliyi kimi sahələrdə də Türklər unudulmaz əsərlər canlandırmışlar.

# SON SÖZ

Son söz olaraq bu həqiqəti bir daha xatırlatmaq yerində olacaq: Müsəlman Türk milləti, sahib olduğu üstün səciyyəsiylə tarixə adını qızıl hərflərlə yazdırmış, qarşısına çıxan hər cür çətinliyin öhdəsindən müvəffəqiyyətlə gəlmişdir. Gələcəkdə ortaya çıxacaq problemləri də türklüyünə yaraşar rəftarla həll edəcəyindən şübhə yoxdur. Çünki Türk milləti çox böyük tarixi mirasa və təcrübəyə malikdir. Bu miras yeni girdiyimiz 21-ci əsrdə, Türk millətini lider ölkələr sırasının əvvəlinə yerləşdirəcək olan köklü və şanlı mirasdır.

Tarix boyunca Türklər hər zaman mədəniyyətlər quran, çox geniş birliklərə liderlik edən bir millət olmuşlar. Türk millətinin bu lider xarakteri, onun dünya liderliyini də bacara biləcəyini göstərir. Türkün tarixi bunun nümunələriylə doludur. Belə bir liderlik yalnız Türkiyə sərhədlərinə deyil, Osmanlı dövlətinin ardından hüzur və sabitlik tapmayan çox geniş torpaqlara da sülh və rifah gətirəcək. Balkanlarda, Orta Şərqdə, Qafqazda, Orta Asiyada dayanmaq bilməyən xaosun həlli də məhz bu böyük idealın reallaşmasıyla çözümə qovuşacaq. Bu gün döyüş mərkəzi mövqeyindəki bu bölgələr Türk millətinin liderliyindəki bir birliyin qoruması altında həsrətində olduqları hüzuru tapacaqlar. Dünyanın həm geostrategiya, həm də geoiqtisadi baxımdan ən əhəmiyyətli bölgəsi olan və çox zəngin təbii qaynaqlara sahib olan bu torpaqlarda yaradılacaq Türk-İslam birliyi dünya siyasətində layiq olduğu yerə qovuşacaq.

Məhz müsəlman Türk dövləti tarix boyunca sahib olduğu bu liderlik vəzifəsinə bugün də talibdir. Keçmişdə olduğu kimi bugün də albanları, boşnakları, pomakları, çeçenləri, çərkəzləri, azərbaycanlıları, gürcüləri və hətta xorvatları, serbləri, rumları, yəhudiləri və bolqarları belə yeni "Türk-İslam Millətlər Birliyi" altında toplamasını hədəfləməkdədir. Necə ki, bütün bu cəmiyyətlərin çoxu, hal-hazırda Osmanlı dövründə gördükləri hüzur və etibarı yenidən yaşayacaqları nizamın təmin edilməsini hədəfləyir və bunun üçün də Türkiyəyə ümidlə baxırlar.

Bunun üçün ediləcək şey, Türk millətinin milli və mənəvi dəyərlərinə, üstün səciyyəsinə bərk-bərk sarılması; aldığı mirasa ciddi şəkildə sahib çıxmasıdır. Bunların bilinməsi, izah edilməsi və yaşadılması zəruridir. Beləliklə daxili və xarici düşmənlərimizin bizləri milli mənliyimizdən

qoparmaq üçün qurduqları tələlər boşa çıxmış olacaq. Və yenə beləliklə Türk milləti, 21-ci əsrin millətləri arasında ön sıradakı yerini alacaqdır.

# ƏLAVƏ BÖLMƏ:
# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı

növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: Həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii

təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki

informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində

qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq,

göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

### Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər

davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

### Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir.

Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

### İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı

fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

- **Australopithecus**
- **Homo habilis**
- **Homo erectus**
- **Homo sapiens**

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwins Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin düsturu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi

milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda

əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan

əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın

əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən! (Bəqərə surəsi, 32)**

# ƏDƏBİYYAT


1) *Atatürk'ün Söylev ve Demeçleri*, cild 2, səh. 214.

2) *Atatürk'ün Onuncu Yıl Nutku*.

3) Prof. Dr. Erol Güngör, *Tarihte Türkler*, Ötüken Neşriyat, İstanbul, 1996, səh. 69.

4) Herodotosun Şərq qövmləri arasında adı çəkilən Targitablar; İskit torpaqlarında doğulduqları deyilən Tyrkaelər; Tövratda adı çəkilən Togarmalar; Qədim Hind qaynaqlarında rast gəlinən Turukhalar və ya Thraklar; Qədim Ön Asiya çivi yazılarında görülən Turukkular; Çin qaynaqlarında e.ə. I əsrdə rol oynadıqları ifadə edilən Tik və ya Dilər şəxsən "Türk" adını daşıyan Türk qövmləri olaraq göstərilməkdədir.

5) Erol Güngör, *Tarihte Türkler*, səh. 12.

6) Osman Turan, *Türk Cihan Hakimiyeti Mefkûresi Tarihi*, Boğaziçi Yayınları, İstanbul, 1993, səh. 22.

7) Geniş məlumat üçün baxın: Prof. Dr. Bahaeddin Ögel, *Türk Mitolojisi*, Cild 1, səh. 61-63; *Büyük Türk Klasikleri Ansiklopedisi*, Cild 1, səh. 53-54; Kemal Zeki Gençosman, *Türk Destanları*, səh. 14-16.

8) Orxon abidələri (kitabələri): Türk dili, tarixi, ədəbiyyatı, incəsənəti və adətləri haqqında əhəmiyyətli məlumatlar verən Orxon abidələri, Bengü daşları, Monqolustanın şimalında, Orxon çayı sahilindəki altı yazılı daşdır. Türk və Türkcə adı, ilk dəfə Şərq Göytürklər dövrünə aid bu abidələrdə keçməkdədir. 1893-cü ildə Danimarkalı Vilhelm Thomsen, 38 hərfdən ibarət olan bu əlifbanı çözərək, abidələri oxumağı bacarmışdır. Abidələrdən üçü çox əhəmiyyətlidir. İki daşdan ibarət olan Tonyukuk abidəsi 716-cı ildə, Kül Tigin abidəsi 732-ci ildə və Müdrik Kağan abidəsi 735-ci ilində tikilmişdir. Kül Tigin abidəsi, Müdrik Kağanın ağzından yazılmışdır.

9) Hakkı Dursun Yıldız, *Hazarlar'da İnsani Değerler ve Hukuk, Türkler'de İnsani Değerler ve İnsan Hakları*, 1-ci kitap, Türk Kültürüne Hizmet Vəqfı yayımları, İstanbul, 1992, səh. 158.

10) Prof. Dr. Osman Turan, *Türk Cihan Hakimiyeti Mefkuresi Tarihi*, 12-ci nəşr, səh. 152

11) Erol Güngör, *Tarihte Türkler*, səh. 64.

12) *Türkler ve Din; Türkler İslamiyet'i Kabul Etmelerinin Öncesinde İslam Dünyası'nda Nasıl Tanınıyorlardı?,* TRT Avrasya Kanalı, 12 mart 2000, Konuşmacılar: Prof. İsenbike Togan ve Prof. Ahmet Yaşar Ocak, Sunan: Prof. Erol Mutlu.

13) http://www.turkiyeden.metu.edu.tr

14) İsmail Hami Danişmend, *Eski Türk Seciyye ve Ahlakı*, İstanbul Kitabevi Yay., İstanbul, 1982, səh. 8.

15) Erol Güngör, *Tarihte Türkler,* səh. 67.

16) Erol Güngör, *Tarihte Türkler,* səh. 66.

17) R. Şeşen, *İbn-i Fadlan Seyahatnamesi,* Bedir Yayınevi, İstanbul, 1975.

18) Yılmaz Öztuna, *Türk Tarihinden Yapraklar*, Milli Eğitim Bakanlığı Yayımları, İstanbul, 1969, səh. 47-48.

19) *Türkler'de Din; Tarihte Devlet ve Din İlişkileri*, TRT Avrasya Kanalı, 27 fevral 2000, Konuşmacılar: Prof. İsenbike Togan ve Prof. Ahmet Yaşar Ocak, Sunan: Prof. Erol Mutlu.

20) Erol Güngör, *Tarihte Türkler*, səh. 69.

21) Mevlana Muhammed, *İslam'ın Yayılış Tarihi*, cild 2, İstanbul, 1972, səh. 985

22) El Mevdudi, *Selçuklular Tarihi*, səh. 257.

23) Osman Turan, *Tarih Akışı İçinde Din ve Medeniyet,* 1980, səh. 129.

24) Osman Turan, *Selçuklular Tarihi ve Türk-İslam Medeniyeti*, Turan Neşriyat Yurdu, İstanbul, 1969, səh. 250.

25) Mustafa Akdağ, *Türkiye'nin İktisadi ve İçtimai Tarihi*, cild 1, Cem Yay., İstanbul, 1974, səh.14.

26) Erol Güngör, Tarihte Türkler, səh. 192.

27) Dimitri Kandemir, *Osmanlı İmparatorluğu'nun Yükseliş ve Çöküş Tarihi*, cild 1, Kültür Bakanlığı Yay., İstanbul, 1979, səh. 26-27.

28) W. Raphael Lewis, *Osmanlı Türkiyesi'nde Gündelik Hayat*, Çev: M. Poroy, Doğan Kardeş Yay., İstanbul, 1963, səh. 11.

29) Galip Söylemezoğlu, *Siyasi Dağarcığım*, İstanbul, 1957, səh. 65.

30) Süleyman Kocabaş, *Tarihte Adil Türk İdaresi*, Vatan Yayınları, 1995, səh. 51.

31) "Mora", *İslam Ansiklopedisi*, cild 8, səh. 423.

32) Tayyip Gökbilgin, *Osmanlı Müesseseleri, Teşkilatı ve Medeniyeti Tarihine Genel Bakış*, İ.Ü.E.F. Yay., İstanbul, 1977, səh. 104.

33) T.W. Arnold, *İntişar-ı İslam Tarihi*, Çev: H. Gündüzer, Akçağ Yay., Ankara, 1971, səh. 283-284.

34) Yılmaz Öztuna, *Türk Tarihinden Yapraklar*, səh. 206.

35) Zekeriya Kitapçı, *Osmanlı Türkleri, Afrika ve Emperyalizm*, Türk Dünyası Tarih jurnalı, fevral 1990, səh. 14.

36) Süleyman Kocabaş, *Tarihte Adil Türk İdaresi*, səh. 134.

37) Avram Galanti, *Türkler ve Yahudiler,* Tan Mat., İstanbul, 1947, səh. 32.

38) Avram Galanti, *Türkler ve Yahudiler*, səh. 23.

39) Süleyman Kocabaş, *Tarihte Adil Türk İdaresi,* səh. 102.

40) Ahmed Akgündüz, Said Öztürk, *Bilinmeyen Osmanlı*, Osmanlı Araştırmaları Vakfı, İstanbul, 1999, səh. 38.

41) Mehmet Neşri, *Neşri Tarihi*, Haz: M.A. Köymen, cild 1, Ankara, 1983, səh. 73.

42) Lamartine, *Aşiretten Devlete* (Türkiye Tarihi), Tərcümə: R.M. Uzmen, cild I, *Tercüman 1001 Temel Eser*, İstanbul, 1979, səh. 68-69.

43) Mehmet Özel; *Vatan, Millet ve Bayrak Sevgisi*; səh. 418.

44 http://www.mfa.gov.tr/turkce/grupk/ka/unxxii.htm

45) Mehmet Özel; *Vatan, Millet ve Bayrak Sevgisi*; səh. 423.

46) E. Esenkova, *Türk Düşüncesi*, fevral 1955, səh. 196.

47) Onur Bilge Kula, *Alman Kültüründe Türk İmgesi*, Gündoğan Yay., Ankara, 1993, səh. 164.

48) Aubry de la Motraye, *Voyages en Europe, Asie et Afrique,* cild 1, 1727, səh. 258-259.

49) M. d'Ohsson, *Tableau General de) l'Empire Ottoman*, cild 4, Paris, 1791, səh. 309.

50) A. Ubicini, *La Turquie Actuelle*, Paris, 1855, səh. 329-330.

51) ames Porter, *Observations sur la religion, les loix, le gouvernement et les moeurs des Turcs,* cild 2, Londra, 1769, səh. 51.

52) Jean Antoine Guer, *Moeurs et Usages des Turcs*, cild 2, Paris, 1747, səh. 188.

53) Comte de Bonneval, *Anecdotes Veniti ennes et Turques ou nouveaux memoires du Comte de Bonneval*, cild 1, Francfort, 1740, səh. 215.

54) Samiha Ayverdi, *Küplüce'deki Köşk*, Hülbe Yay., İstanbul, 1989, səh. 189.

55) T. Thornton, *Etat Actuel de la Turquie*, cild 2, Paris, 1812, səh. 323.

56) Du Loir, *Les voyages du Sieur du Loir*, Paris, 1654, səh. 193.

57) Comte de Bonneval, *Anecdotes Venitiennes et Turques ou Nouveaux Memoires du Comte de Bonneval,* səh. 24.

58) M. d'Ohsson, *Tableau General de l'Empire Ottoman*, cild 4, səh. 467.

59) A. Brayer, *Neuf Annees a Constantinople*, cild 1, Paris, 1836, səh. 198-199.

60) A. Brayer, *Neuf Années à Constantinople,* cild 1, səh. 293.

61) A.L. Castellan, *Lettres sur la Grece,) l'Hellespont et Constantinople*, cild 2, 1811, səh. 91.

62) Edmondo de Amicis, *Constantinople*, Paris, 1883, səh. 415, 420.

63) Comte de Bonneval, *Anecdotes venitiennes et Turques ou nouveaux memoires du Comte de Bonneval*, səh. 213.

64) L.H. Delamarre, *Voyage en Krimée, suivi de la Relation de l'Ambassade envoyée de Petersbourg à Constantinople*, 1802, səh. 208.

65) A. Ubicini, *La Turquie Actuelle*, Paris, 1855, səh. 354.

66) M. Thevenot, *Relation d'un Voyage Fait au Levant,* Paris, 1665, səh. 95-97.

67) Motraye, *Voyages en Europe, Asie et Afrique*, cild 1, 1727, səh. 263.

68) M. d'Ohsson, *Tableau General de l'Empire Ottoman*, cild 4, səh. 381.

69) T. Thornton, *Etat Actuel de la Turquie*, cild 2, Paris, 1812, səh. 226, 311.

70) M. d'Ohsson, *Tableau General de l'Empire Ottoman*, səh. 356.

71) A. Ubicini, *La Turquie Actuelle*, Paris, 1855, səh. 283.

72) Charles Mac Farlane, *Constantinople et la Turquie*, cild 2, Paris, 1829, səh. 81.

73) Du Loir, *Les voyages du Sieur du Loir*, Paris, 1654, səh. 189.

74) A. Brayer, *Neuf Années à Constantinople*, cild 1, səh. 224-226.

75) Guer, *Moeurs et usages des Turcs*, cild 1, Paris, 1747, səh. 221.

76) Lady Craven, *Voyage de Milady Craven à Constantinople*, Paris, 1789, səh. 171.

77) Lamartine, *Voyage en Orient*, cild 2, Paris, 1896-1897, səh. 259.

78) Lamartine, *Voyage en Orient*, cild 2, səh. 235-236.

79) M. Thevenot, *Relation d'un voyage fait au Levant,* səh. 58, 70.

80) T. Thornton, *Etat Actuel de la Turquie*, cild 2, səh. 343.

81) A. Brayer, *Neuf annees a Constantinople,* cild 1, səh. 334.

82) Hüseyin Algül, *İslam Tarihi*, cild 4, Gonca Yay., İstanbul, 1988, səh. 158.

83) *Hayat Tarih Mecmuası*, Ocak 1969, sayı 12.

84) Sidney Fox, Klaus Dose, *Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2*

85 *Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953, səh.196*

86 "New Evidence on Evolution of Early Atmosphere and Life", *Bulletin of the American Meteorological Society*, cild 63, noyabr 1982, səh. 1328-1330

87 Stanley Miller, *Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules*, 1986, səh. 7

88 *Jeffrey Bada, Earth, fevral 1998, səh. 40*

89 *Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, oktyabr 1994, səh. 78*

90 Charles Darwin, *The Origin of Species: A Facsimile of the First Edition,* Harvard University Press, 1964, səh. 189

91 Charles Darwin, *The Origin of Species: A Facsimile of the First Edition,* Harvard University Press, 1964, səh. 184

92 *B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988*

93 *Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179*

94 *Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133*

95 *Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. səh. 197*

96 Solly Zuckerman, *Beyond The Ivory Tower*, New York: Toplinger Publications, 1970, səh. 75-94; Charles E.) Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", *Nature,* c. 258, səh. 389

97 J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", *Scientific American,* dekabr 1992

98) Alan Walker, *Science*, cild 207, 1980, səh. 1103; A. J. Kelso, *Physical Antropology*, 1-ci nəşr, New York: J. B. Lipincott Co., 1970, səh. 221; M. D. Leakey, *Olduvai Gorge*, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272

99) *Time,* noyabr 1996

100*)* S. J. Gould, *Natural History, cild 85, 1976, səh. 30*

101) Solly Zuckerman, *Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19*

102 Richard Lewontin, *"The Demon-Haunted World",* The New York Review of Books, 9 yanvar 1997, səh. 28

103) Malcolm Muggeridge, *The End of Christendom,* Grand Rapids: Eerdmans, 1980, səh.43

**TÜRK MİLLƏTİ, dünya tarixinə damğasını vurmuş böyük millətdir. Bu, şübhə yaratmaz həqiqətdir. Millətimiz, tarixdə unudulmaz zəfərlər qazanmış; üç qitədə möhtəşəm dövlətlər qurmuş; əsrlər boyunca ucsuz-bucaqsız torpaqlarda dinləri, dilləri, irqləri fərqli millətləri ədalət və anlayışla idarə etmiş; ayaq basdığı yerlərə mədəniyyət aparmış; dünya millətlərinə nümunə olmuşdur.**

**Əlbəttə bütün bu müvəffəqiyyətlər, Türkün üstün əxlaq və səciyyəsindən qaynaqlanır. Əlinizdəki kitab, Türkün yüksək xarakterini tanıtmaq məqsədiylə qələmə alınmışdır. Çünki Türklərin daha böyük müvəffəqiyyətlərə imza ata bilmələri, Türk mədəniyyətini, incəsənətini, tarixini və səciyyəsini yaxından tanıyıb yaşatmalarına bağlıdır.**

**Kitab boyunca, Türk tarixinin işığında, Türkün əxlaqı, ədaləti, dürüstlüyü, təvazökarlığı, nəzakəti, xeyirxahlığı, təmkini, comərdliyi, təbiət sevgisi, qısacası Türkün yüksək səciyyəsi gözlər önünə sərilir.**

MÜƏLLİF HAQQINDA: Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allahın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda bəhs edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.